## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANA RƏHBƏRLİK ETDİYİ İLLƏR ÖLKƏMİZDƏ SABİTLİK VƏ İNKİŞAF DÖVRÜ KİMİ TARİXƏ DÜŞÜB

Bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu və inkişafı liderlik amili ilə birbaşa bağlıdır. Ölkəmizin inkişafında, gələcəyə əmin addımlarla irəliləməsində lider fenomeni müstəsna əhəmiyyətə malikdir. Bu da bir həqiqətdir ki, müasir Azərbaycan dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət, əbədiyaşar lider...



Bax səh. 3

## ASİYADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ PLATFORMASI: AZƏRBAYCAN ÜÇÜN GEOSİYASİ ƏHƏMİYYƏTİ

Tacikistanın paytaxtı Düşənbə şəhərində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin beşinci Zirvə toplantısı keçirilib. Toplantıda regionun daha təhlükəsiz və daha yüksək inkişaf etmiş hala gəlməsinin yolları müzakirə edilib. Bunun fonunda hazırda mövcud olan müxtəlif xarakterli təhlükələrə, risklərə, təhdidlərə nəzər salınıb. Zirvə toplantısında iştirak edən dövlət və...



Bax səh. 7



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 22 iyun 2019-cu il, şənbə / № 111 (5486). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Aparılan iqtisadi islahatlar nəticəsində Azərbaycanın maliyyə imkanları əsaslı şəkildə artıb



***Prezident İlham Əliyev:*** *İqtisadi sahədə aparılan islahatlara bu gün çox böyük diqqət göstərilir və bu islahatlar artıq nəticə gətirir*

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 85-ci kitabı çapdan çıxıb



İqtisadi cəhətdən asılı vəziyyətdə olan ölkələr müstəqil siyasət apara bilmirlər, yaxud da ki, aparmaqda çətinlik çəkir. Biz isə tam müstəqil siyasət aparırıq, bütün məsələlərlə bağlı bizim öz mövqeyimiz var və bu mövqeyi çəkinmədən ifadə edirik. Biz bütün prinsipial məsələlərlə bağlı beynəlxalq kürsülərdən səsimizi ucaldırıq, ədaləti və qanunun aliliyini təbliğ və müdafiə edirik.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin bu günlərdə çapdan çıxmış 85-ci kitabında yer alan bu fikirlər Azərbaycan Respublikasının regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda dövlətimizin başçısının söylədiyi nitqdən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2018-ci ilin yanvar-mart aylarını əhatə edir.

Kitabda Prezident İlham Əliyevin İsveçrənin Davos şəhərində Dünya İqtisadi Forumu çərçivəsində keçirdiyi görüşlər haqqında informasiyalar, Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında, "İnklüziv cəmiyyətlərin qurulması üçün fərqlilikləri aradan qaldırılması" mövzusunda VI Qlobal Bakı Forumunda söylədiyi nitqlərinin mətnləri yer alıb.

Nəşrə Prezident İlham Əliyevin Azərbaycana səfərə gəlmiş Albaniya Prezidenti ilə görüşünə, habelə Türkiyə, ABŞ, Böyük Britaniya, İtaliya, Niderland, İran, Mərakeş, Yaponiya və digər dövlətlərin, Avropa İttifaqının, Avropa Komissiyasının, ATƏT-in, Dünya Bankının yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair informasiyalar toplanıb.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet kimi qaldırılıb.

Çoxcildliyin 85-ci kitabına, həmçinin Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VI qurultayındakı nitqinin, "Rossiya-24" telekanalının müxbirinə müsahibəsinin mətnləri, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayının iştirakçılarına məktubu və digər məktubları daxil edilib.

Oxucular bu kitabda dövlətimizin başçısının Mingəçevir şəhərinə, Bərdə rayonuna səfərləri haqqında materiallarla da tanış ola bilər.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 85-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.



## Prezidentin iş günü

İyunun 21-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq bildirib, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə ediblər.

Azərbaycan və Türkiyə prezidentləri ikitərəfli münasibətlərimizin perspektivləri və qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

⬩ ❖ ⬩

Prezident İlham Əliyev Famil Front oğlu Mustafayevin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

### Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği



Əsərlərində ümumbəşəri fikirləri yüksək poetik şəkildə ifadə edən mütəfəkkir-şair İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri kimi zamanında bədii söz sənətinin dəyərli incilərini ortaya qoyub...

Bax səh. 7

### Nazirlər Kabinetində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının 8-ci iclası keçirilib

İyunun 21-də Nazirlər Kabinetində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının səkkizinci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov iclasın gündəliyində duran məsələlərdən danışıb. O, iclasın əsas məqsədinin BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna təqdim olunacaq ikinci Könüllü Milli Hesabatın təqdimatı və təsdiq edilməsi, həmçinin Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının...

Bax səh. 3

### Avstriya Mətbuat Agentliyi "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda konfransla bağlı məqalə yayıb



Avstriya Mətbuat Agentliyi (APA) iyunun 19-da Vyanada keçirilmiş "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda konfransla bağlı məqalə yayıb...

Bax səh. 4

### Dövlət Komitəsinin rəhbərliyi şimal-qərb bölgəsində vətəndaşları qəbul edəcək

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyunun 25-də saat 10:00-da Şəki Şəhər Heydər Əliyev Mərkəzində yerli sakinləri qəbul edəcək. Bu barədə AZƏRTAC-a komitədən məlumat verilib.

Həmin tarixdə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Qəbələ Rayon Heydər Əliyev Mərkəzində, sədr müavini Gündüz İsmayılov isə Oğuz Olimpiya İdman Kompleksində rayon sakinləri ilə görüşəcək. Qəbullar saat 11:00-da başlayacaq.

Qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Şəki bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.

# Aparılan iqtisadi islahatlar nəticəsində Azərbaycanın maliyyə imkanları əsaslı şəkildə artıb

## *Prezident İlham Əliyev: İqtisadi sahədə aparılan islahatlara bu gün çox böyük diqqət göstərilir və bu islahatlar artıq nəticə gətirir*

*Qlobal miqyasda müşahidə edilən mənfi tendensiyalar, böhranlar fonunda ayrı-ayrı ölkələr iqtisadi inkişafla bağlı bir sıra çətinliklərlə üzləşirlər. İqtisadiyyatı bu və ya digər dərəcədə neft amili ilə bağlı olan dövlətlər üçün yaranan təhdidlərin miqyası isə daha genişdir. Yaşanan çətinliklərdən biri maliyyə çatışmazlığı ilə bağlıdır. Bir növ zəncirvari proseslər gedir. İqtisadiyyat lazımi templərlə inkişaf etmir, iqtisadi fəallıq aşağı düşür və təbii ki, ölkələrin gəlirləri azalır. Nəticədə həm iqtisadiyyatın özünün investisiya təminatı zəifləyir, həm də sosial sferaya tələb olunan həcmlərdə vəsait yönəltmək imkanları məhdudlaşır. Bu kimi çətinliklərlə üzləşən bəzi dövlətlərdə hətta maaşlar, pensiyalar, sosial müavinətlər belə ciddi şəkildə azaldılıb.*



Azərbaycanın vəziyyəti isə tamam fərqli rakursdan diqqəti çəkir. Ölkəmiz son 15 ildə uğurla inkişaf edib və yeni iqtisadi şəraitdə də inkişafın ardıcıllığını təmin etmək əzmi nümayiş etdirir. Əsas məqamlardan biri də ondan ibarətdir ki, respublikamızda maliyyə kasadlığı qətiyyən hiss olunmur. Əksinə, respublikamız fəal investisiya siyasəti həyata keçirir, həm respublikanın daxilində, həm də ölkə hüdudlarından kənarda irimiqyaslı layihələr reallaşdırır, eyni zamanda, əhalinin rifah halının daha yüksək səviyyəyə qaldırılmasına, vətəndaşların gəlir imkanlarının artırılmasına böyük həcmlərdə vəsait yönəldir.

Təbii ki, ölkəmizin yüksək inkişafını şərtləndirən bir sıra amillər sadalamaq mümkündür. Əsas məqam isə ondan ibarətdir ki, Azərbaycan özünün praqmatik və ardıcıl səciyyə daşıyan siyasətində qlobal çağırışları nəzərə alaraq özünün strateji inkişaf paradiqmalarını və qarşıya qoyulan məqsədlərə çatmaq üçün səmərəli fəaliyyət istiqamətlərini müəyyənləşdirir. O cümlədən respublikamızda Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq islahatlar dönməz xarakter alıb.

### ÖLKƏMİZDƏ APARILAN İSLAHATLAR BÜTÜN SAHƏLƏRDƏ ÖZÜNÜN MÜSBƏT NƏTİCƏLƏRİNİ VERİR

Azərbaycanın xoşbəxtliyi ondadır ki, ölkəmiz Prezident İlham Əliyevin siyasi qətiyyəti və qəbul etdiyi mühüm qərarlar sayəsində yeni iqtisadi modelə keçidi, transformasiya proseslərini uğurla təmin etməyə nail olub. Son illərdə ölkəmizdə genişmiqyaslı islahatlar həyata keçirilir. Qabaqcıl dünya təcrübəsinin, müasir təsərrüfatçılıq metodlarının, yeni təşəbbüslərin tətbiqinə, liberal transformasiyalara uğurlu keçidin təmin olunmasına hesablanan kompleks islahatlar postneft dövründə milli iqtisadiyyatımızın inkişafı üçün münbit zəmin rolunda çıxış edərək onun qarşısında yeni perspektivlər açıb. Əsas məqamlardan biri ondan ibarətdir ki, islahatlar kompleks səciyyə daşıyır və bir-birini tamamlayır. Prezident İlham Əliyev ölkədə biznes mühitinin optimallaşdırılması, bank-maliyyə sektorunda inklüzivliyin daha da artırılması, sahibkarların vergi yükünün azaldılması yolu ilə vergi bazasının genişləndirilməsi, gömrük nəzarətinin sadələşdirilməsi və şəffaflığın təmin olunması, istehsal imkanlarının genişləndirilməsi, “Made in Azerbaijan” brendinin yaradılması və sosial sfera da daxil olmaqla digər sahələri əhatə edən Fərman və sərəncamlar imzalayıb. Dövlət başçısının 2016-cı il 6 dekabr tarixində imzaladığı Fərmanla təsdiqlənən milli iqtisadiyyat perspektivi və onun 11 sektoru üzrə strateji yol xəritələri yaxın, orta və uzunmüddətli dövrlərdə ölkəmizin hərtərəfli inkişafına hesablanıb.

> *“Bu ilin əvvəlindən büdcə daxilolmaları böyük dərəcədə - yüz milyonlarla manat həcmində artmışdır. Bu, bizə əlavə imkanlar yaradır ki, ilk növbədə sosial sahədə bu artım özünü göstərsin”*

Yeni şəraitdə ölkədə aparılan islahatların böyük bir qismi biznes mühitinin daha da optimallaşdırılmasına istiqamətləndirilib. Belə ki, respublikada Prezident İlham Əliyevin siyasi iradəsi əsasında sahibkarlıq subyektlərində yoxlamaların dayandırılmasının müddəti 2021-ci ilədək uzadılıb, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib, lisenziyalar müddətsiz müəyyən edilib, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılıb, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən “ASAN xidmət” mərkəzlərində verilməsinə başlanılıb.

Yeni şəraitdə respublikamızda aparılan iqtisadi islahatlar çərçivəsində ölkədə ixracın səmərəli təşviqi mexanizmi işə salınıb ki, burada da əsas məqsədlərdən biri xarici bazarlara daha çox mal çıxartmaqla ölkəyə valyuta daxilolmalarını artırmaqdır.

Eyni zamanda, daxili istehsalın dəstəklənməsi istiqamətində həyata keçirilən zəruri tədbirlər böyük aktuallıq daşıyır. Qeyri-neft sektorunda istehsal və ixrac imkanlarının genişləndirilməsi məqsədilə özünütəminetmə səviyyəsi və yerli istehsal potensialı yüksək olan məhsullar üzrə idxala spesifik rüsumlar tətbiq edilir. Milli sahibkarlar ölkədə daxili istehsalın dəstəklənməsinə yönələn tədbirlərdən maksimum dərəcədə bəhrələnməyə çalışırlar. Təsadüfi deyil ki, özəl bölmə təmsilçiləri son vaxtlarda istehsal təyinatlı müəssisələrin yaradılmasına məmnuniyyətlə investisiyalar yönəldirlər.

> *“Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır”*

Aparılan islahatlar indiki şəraitdə Azərbaycanın müqavimət gücünü artıran və ölkəmizin qarşısında yeni inkişaf perspektivləri açan fundamental faktorlar qismində çıxış edir. Ardıcıl şəkildə həyata keçirilən islahatlar Azərbaycanı iqtisadi cəhətdən müstəqil dövlətə çevirib. Qürur doğuran haldır ki, bu gün respublikamız yüksək rəqabət qabiliyyətinə malik iqtisadiyyata malikdir və heç bir kənar maliyyə mənbəyindən asılı deyil. Əksinə, özünün iqtisadi və maliyyə müstəqilliyini təmin edən Azərbaycan ölkə xaricində də nəhəng investisiya layihələri həyata keçirir. Bütövlükdə son 15 ildə həyata keçirilən müxtəlif təşviq tədbirləri, islahatlar və maliyyə təminatının gücləndirilməsi sayəsində milli iqtisadiyyatımız 3,3 dəfədən çox genişlənib. O cümlədən cari ilin birinci rübündə ölkə üzrə ümumi daxili məhsul 3 faizdən çox artıb. Qeyd edək ki, bu, son illərin ən yüksək göstəricisidir.

Deyilənlərdən də göründüyü kimi, Azərbaycanın son 15 ildə və 2019-cu ilin birinci rübündə yüksək iqtisadi inkişaf göstəriciləri qazanmasında məqsədyönlü şəkildə həyata keçirilən islahatların kifayət qədər böyük rolu olub. Ölkəmiz bundan sonra da islahatlar yolu ilə gedəcək. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində bildirib ki, islahatların alternativi yoxdur: **“Biz ötən il keçirilmiş prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə qədəm qoyduq. Prezident seçkiləri ərəfəsində islahatların anonsu verildi və islahatların məqsədyönlü şəkildə həyata keçirilməsi üçün çox ciddi addımlar atılmışdır, hazırlıq işləri aparılmışdır. Bu ilin birinci rübündə əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur. Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır”.**

### MALİYYƏ İMKANLARININ GENİŞLƏNMƏSİ ÖLKƏNİN UĞURLU İNKİŞAFINI ŞƏRTLƏNDİRƏN ÇOX MÜHÜM AMİLDİR

Ölkədə aparılan iqtisadi islahatların nəticəsi olaraq Azərbaycanın maliyyə imkanları əsaslı şəkildə artıb ki, bu da respublikamızın uğurlu inkişafını şərtləndirən çox mühüm amildir. Məlumdur ki, son 15 ildə bütün respublika üzrə yüksəksəviyyəli infrastruktur quruculuğu həyata keçirilib. Belə ki, bəhs olunan dövrdə respublikamız 30 yeni elektrik stansiyası tikməyə və özünün generasiya güclərini daha 2500 meqavat artırmağa nail olub. Hazırda respublikamız həm elektrik enerjisinə olan daxili tələbatını tam olaraq yerli istehsal hesabına ödəyir, həm də müəyyən həcmlərdə ixrac imkanlarımız yaranıb. Hazırda respublikamızda qazlaşdırmanın səviyyəsi 95 faizə çatdırılıb ki, bu da bütün dünya üzrə ən yaxşı göstəricilərdən biridir. Əgər 2004-cü ildə ölkədə fasiləsiz içməli su ilə təminat 26 faiz səviyyəsində idisə, 2018-ci ildə bu göstərici 67 faizə çatdırılıb. Perspektivdə isə respublikada əhalinin su təchizatının daha yüksək səviyyəyə çatdırılması hədəflənib. Son 15 ildə respublikamızda 15 min kilometrdən çox yol çəkilib, 443 körpü tikilib. Respublikanın regionlarında hazırda istifadə olunan torpaqların su təminatının yaxşılaşdırılması və yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsi üçün uğurla reallaşdırılan layihələrin statistikası da kifayət qədər zəngindir. Son 15 ildə ölkə üzrə 390 min hektar sahədə torpaqların su təminatı və 261 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılıb, 146 min hektar yeni suvarılan torpaqlar əkin dövriyyəsinə cəlb edilib.

> *“Azərbaycan regionlarına və eyni zamanda, neft-qaz sektoruna, Bakı şəhərinin inkişafına böyük vəsait qoyulmasına baxmayaraq, biz öz valyuta ehtiyatlarımızı 24 dəfə artıra bilmişik. Bu, bizə imkan verir ki, gələcəyə çox böyük ümidlərlə baxaq”*

Eyni zamanda, Azərbaycan son 15 ildə regionda qlobal əhəmiyyət daşıyan bir sıra nəqliyyat və enerji layihələrinin reallaşdırılmasına böyük həcmlərdə investisiyalar yönəldib. Respublikamızın iştirakı ilə ərsəyə gələn həmin layihələr bu gün regionda yeni müsbət reallıqların yaranmasında, əməkdaşlığın möhkəmlənməsində mühüm rol oynayır.

Bəhs olunan dövrdə ölkə daxilində və regionda nəhəng infrastruktur layihələrinə böyük həcmlərdə sərmayələr yönəltməsinə baxmayaraq, respublikamız həmçinin özünün valyuta ehtiyatlarını əhəmiyyətli dərəcədə artırmağa nail olub.

Hazırda Azərbaycan təxminən 45 milyard dollar həcmində strateji valyuta ehtiyatlarına malikdir ki, bu da kifayət qədər böyük rəqəmdir. Prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransdakı nitqində ölkəmizin valyuta ehtiyatlarının artmasından məmnunluğunu bildirərək **“Azərbaycan regionlarına və eyni zamanda, neft-qaz sektoruna, Bakı şəhərinin inkişafına böyük vəsait qoyulmasına baxmayaraq, biz öz valyuta ehtiyatlarımızı 24 dəfə artıra bilmişik. Bu, bizə imkan verir ki, gələcəyə çox böyük ümidlərlə baxaq. Azərbaycan iqtisadiyyatı bu gün dayanıqlı iqtisadiyyatdır”**, - deyə vurğulayıb.

Azərbaycanın yüksək maliyyə təminatına malik ölkəyə çevrilməsinə respublikamızın investisiya cəlbediciliyinin artırılması da öz müsbət təsirini göstərir. Hazırda milli iqtisadiyyatımız daxili və xarici sərmayələr üçün yüksək cəlbediciliyə malikdir. Təkcə belə bir faktı vurğulamaq kifayətdir ki, son 15 ildə respublikamıza müxtəlif mənbələrdən 250 milyard dollardan çox investisiyalar yönəldilib. Ayrı-ayrı ölkələrin sərmayə cəlbediciliyi baxımından ciddi problemlərlə üzləşdiyi bir vaxtda respublikamıza bəhs olunan həcmdə sərmayələr yönəldilməsi ilk növbədə Azərbaycanın müsbət reallıqları ilə bağlıdır. Əvvəlki illərdə yaradılan güclü iqtisadi potensial, müasir infrastruktur təminatı, nəqliyyat dəhlizləri, Avropaya və Asiyaya çıxış imkanlarının eyni bir məkanda cəmləşməsi və əlbəttə ki, möhkəm daxili sabitlik yerli və xarici iş adamlarının çəkinmədən ölkə iqtisadiyyatının müxtəlif sahələrinə sərmayələr yönəltmələrinə güclü stimul verir.

Deyilənlərlə yanaşı, onu da qeyd edək ki, yeni iqtisadi şəraitdə dövlət həmçinin investisiyaların təşviqinin hüquqi bazasının möhkəmləndirilməsinə böyük siyasi iradə nümayiş etdirir. Prezident İlham Əliyevin iqtisadiyyatın yeni şəraitdə inkişafının təmin edilməsi məqsədilə imzaladığı sənədlər içərisində investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması məqsədilə 2016-cı il 18 yanvar tarixli “İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” müvafiq Fərmanı xüsusi yer tutur. Bu Fərmanla “İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası” təsdiqlənib. Qaydalarda ölkənin investisiya cəlbediciliyinə nail olmaq üçün böyük güzəştlər nəzərdə tutulub. Azərbaycanın dövlət başçısı ölkənin investisiya cəlbediciliyini artırmaq məqsədilə daha bir neçə sənəd imzalayıb.

Ölkəmizdə investisiya təşviqi mexanizminin işə salınması öz müsbət nəticəsini verir. Siyasi dəstək tədbirləri, hüquqi bazanın möhkəmləndirilməsi investorlarda iqtisadiyyatın müxtəlif sahələrinə sərmayələr yönəltməyə böyük maraq yaradıb. Bunun təsdiqi olaraq vurğulamaq yerinə düşər ki, təkcə 2019-cu ilin birinci rübündə müxtəlif mənbələrdən respublikamıza 2,8 milyard dollar investisiya qoyulub ki, bunun da 2 milyardı qeyri-neft iqtisadiyyatına yönəldilib. Bütövlükdə, cari ilin birinci rübündə ölkədə aparılan məqsədyönlü islahatların nəticəsi olaraq ölkəmizin gəlirləri artıb. Cari il mayın 27-də “Buta” sarayında Respublika Günü münasibətilə keçirilən rəsmi qəbuldakı nitqində bunu nəzərə çatdıran Prezident İlham Əliyev bildirib: **“İqtisadi sahədə aparılan islahatlara bu gün çox böyük diqqət göstərilir və bu islahatlar artıq nəticə gətirir. Nəticə ondan ibarətdir ki, büdcə daxilolmaları artır. Bu ilin əvvəlindən büdcə daxilolmaları böyük dərəcədə - yüz milyonlarla manat həcmində artmışdır. Bu, bizə əlavə imkanlar yaradır ki, ilk növbədə sosial sahədə bu artım özünü göstərsin”.**

### BEYNƏLXALQ MALİYYƏ QURUMLARI AZƏRBAYCANDA APARILAN İSLAHATLARA MÜSBƏT QİYMƏT VERİRLƏR

Əlamətdar haldır ki, respublikamızın sosial-iqtisadi inkişaf sahəsində qazandığı uğurlar, ölkədə aparılan islahatların səmərəliliyi beynəlxalq səviyyədə də etiraf olunur. Son vaxtlarda Davos İqtisadi Forumunun, Avropa Yenidənqurma və İnkişaf Bankının və digər nüfuzlu beynəlxalq qurumların hesabatlarında respublikamızın müsbət reallıqları, uğurla reallaşdırılan yeni nəsil iqtisadi islahatlar və inkişaf perspektivləri ilə bağlı müsbət dəyərləndirmələr öz əksini tapıb. Prezident İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində ölkəmizin uğurlarının beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsindən məmnunluğunu bildirib: **“Bu gün iqtisadi sahədə aparılan islahatlar bütün mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, bizim tərəfdaşlarımız Azərbaycana böyük kreditlər verirlər. Nəyə görə? Ona görə ki, bizə inanırlar. Birinci növbədə görürlər ki, islahatlar səmərə verir, digər tərəfdən Azərbaycanın uğurlu gələcəyinə inanırlar. Əgər belə olmasaydı, milyardlarla dolları Azərbaycana kredit şəklində verərdilərmi? Əlbəttə ki, yox”.**

> *“Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, bizim tərəfdaşlarımız Azərbaycana böyük kreditlər verirlər. Nəyə görə? Ona görə ki, bizə inanırlar. Birinci növbədə görürlər ki, islahatlar səmərə verir, digər tərəfdən Azərbaycanın uğurlu gələcəyinə inanırlar”*

Bu məqamda vurğulamaq yerinə düşər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar, öz növbəsində, “Doing Business 2019” hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. Dünya Bankının yaydığı “Doing Business 2019” hesabatında Azərbaycan 10 ən islahatçı dövlət siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb. Hesabata əsasən, respublikamız dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.

**Mübariz ABDULLAYEV**

# Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizdə sabitlik və inkişaf dövrü kimi tarixə düşüb

*24 iyun 1993-cü il tarixində Milli Məclisin qərarı ilə prezident səlahiyyətlərini icra etməyə başlayan Ümummilli Lider Heydər Əliyev Azərbaycanı xaos, tənəzzül və məhv olmaq təhlükəsindən xilas etdi*

*Bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu və inkişafı liderlik amili ilə birbaşa bağlıdır. Ölkəmizin inkişafında, gələcəyə əmin addımlarla irəliləməsində lider fenomeni müstəsna əhəmiyyətə malikdir. Bu da bir həqiqətdir ki, müasir Azərbaycan dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət, əbədiyaşar lider, Ulu Öndər Heydər Əliyev olmuşdur. Ümumiyyətlə, Ümummilli Lider Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülmüşdür.*




### ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQININ VƏ DÖVLƏTİNİN XİLASKARIDIR

Bəllidir ki, 1991-ci ildə yenidən müstəqillik əldə etdikdən sonra müxtəlif sosial-iqtisadi, ictimai-siyasi problemlərlə üzləşən, vətəndaş müharibəsinin astanasında olan Azərbaycan, hətta öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya idi. Ölkə daxilində müxtəlif silahlı qruplaşmaların hakimiyyət və səlahiyyət savaşına çıxması həm siyasi böhrana səbəb olmuş, həm də Azərbaycanı müxtəlif xarici kəşfiyyat orqanlarının mübarizə meydanına çevirmişdi. Məhz bütün bunların nəticəsi kimi, mövcud ictimai-siyasi xaos daha da dərinləşərək anarxiya həddinə çatmışdı. Bir sözlə, həmin dövrdə ölkəyə "rəhbərlik" edən qüvvələrin səriştəsiz və milli maraqlardan uzaq siyasəti Azərbaycanı uçurumun astanasına yaxınlaşdırmış, ölkəmizin müstəqilliyinin itirilməsi təhlükəsini meydana çıxarmışdı.

Beləliklə, 1993-cü ildə respublikada artıq həyatın bütün sahələrini böhran bürümüşdü. AXC-"Müsavat" cütlüyünün yarıtmaz fəaliyyəti nəticəsində ölkədə tam bir xaos və anarxiya yaranmış, daxili çəkişmələr özünün pik nöqtəsinə çatmışdı. Artıq əlinə silah alan hakimiyyəti ələ keçirməyə çalışırdı və separatist meyillər kəskin xarakter almışdı. Belə bir gərgin və böhranlı vəziyyətdə xalq ümidini dahi siyasətçi, böyük dövlət xadimi Heydər Əliyevə bağlamış, 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı Ona müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etmişdi. İyun hadisələri zamanı, hətta ozamankı hakimiyyət də Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur olmuş, xalqın təkidli tələbi və iqtidarın çoxsaylı xahişi ilə Ulu Öndər Heydər Əliyev Bakıya qayıtmışdı. Beləliklə, iyunun 9-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xalqın təkidli tələbi ilə Bakıya qayıtdı, ölkənin xaos, vətəndaş qarşıdurması, dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən xilas edilməsi tarixi missiyasını həyata keçirməyə başladı. İyunun 15-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi, həmin gün Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi düşdü. Heç şübhəsiz, Qurtuluş xalqımızın Ümummilli Lider Heydər Əliyevin tarixi missiyasına verdiyi düzgün, ədalətli, obyektiv qiyməti əks etdirir. 24 iyun 1993-cü il tarixində isə Milli Məclisin qərarı ilə Ali Sovetin Sədri Heydər Əliyev prezident səlahiyyətlərini icra etməyə başladı.

Ümumiyyətlə, böyük dövlət xadimi Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsindən - qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı və Azərbaycanı parçalamaq, forposta çevirmək, korporativ maraqlar əsasında idarə etmək istəyənlər öz niyyətlərinə çata bilmədilər. Asayiş və qayda-qanun bərqərar edildi, soyğunçuluğa, vətəndaşların əmlakının qəsb olunmasına son qoyuldu. Ən əsası, nizami ordu yaradıldı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsində atəşkəs əldə edildi, münaqişənin dinc yolla nizama salınmasına dair danışıqlara başlandı. Qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son verilməsi, ilk parlament seçkilərinin keçirilməsi, referendum yolu ilə Konstitusiyanın qəbul edilməsi, idarəetmə sisteminin formalaşdırılması, neft müqavilələrinin imzalanması, Azərbaycanın iqtisadi dirçəlişinin əsasının qoyulması, respublikamızın beynəlxalq əlaqələrinin formalaşdırılması, ölkənin dünya birliyinə inteqrasiyası prosesinə başlanması dövlətimizin tərəqqi yolunda inamla irəliləməsini təmin etdi.

1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkilərinin nəticələrinə müvafiq olaraq xalqın dərin etimadı ilə Azərbaycan Prezidenti seçilən Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət sayəsində Azərbaycan güclü - qüdrətli və nüfuzlu dövlətə çevrildi. Vurğuladığımız kimi, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, qarışıq seçki sistemi əsasında parlament seçkilərinin keçirilməsi, dövlətin hüquqi əsaslarının gücləndirilməsi, başqa sözlə, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaradıldı. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Bunlar isə öz növbəsində siyasi sosiallaşmaya və siyasi mədəniyyətin inkişafına, ümumilikdə, sosial-siyasi institutların səmərəli fəaliyyətinə yol açdı. Bir sözlə, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan milli inkişaf strategiyasının fonunda həyata keçirilən sistematik işlər və görülən məqsədyönlü tədbirlər siyasi sistemin təşəkkül tapmasını, onun struktur elementlərinin mütəmadi təkmilləşməsini təmin etmiş oldu. Öz fəaliyyətini Azərbaycanın hərtərəfli inkişafına həsr edən Ulu Öndər, eyni zamanda, dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində növbəti addımlarını atdı. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin, Ombudsman təsisatının və digər mühüm institutların yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi islahat xarakterli addımlar ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Milli ideologiyanın yaradılması da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsindən biridir. Məlum olduğu kimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevrildi. Bu illər ərzində Ulu Öndər Heydər Əliyev məhv olmaq təhlükəsi ilə üz-üzə olan Azərbaycanı, sözün əsl mənasında, azad və müstəqil inkişaf edən ölkəyə çevirdi.

Bunlarla yanaşı, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik xarici siyasət kursu nəticəsində ölkəmiz beynəlxalq arenada müstəqil dövlət kimi tanındı, ikitərəfli və çoxtərəfli səmərəli xarici əlaqələr quruldu. O da qeyd edilməlidir ki, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycana böyük həcmdə xarici sərmayə qoyuluşuna başlandı. Bütün sahələrdə olduğu kimi, iqtisadiyyatda da institusional islahatlar həyata keçirildi, azad bazar iqtisadiyyatının formalaşdırılması məqsədilə hüquqi baza yaradıldı, xalqın həyat səviyyəsi yüksəldi. Daha sonra Azərbaycan neftinin dünya bazarlarına nəqli istiqamətində müstəsna əhəmiyyət kəsb edən tədbirlər görüldü və mühüm əməkdaşlıq layihələri gerçəkləşdirildi. Digər tərəfdən, Ümummilli Lider Heydər Əliyevin gərgin əməyi və ardıcıl səyləri nəticəsində Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atıldı, məsələnin mahiyyəti dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Ulu Öndər Heydər Əliyev bir çox dünya dövlətləri ilə bu mövzuda danışıqlar apararaq beynəlxalq tədbirlərdə, o cümlədən sammitlərdə Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi və Ermənistanın işğalçılıq siyasətinin pisləndiyi qətnamələrin və bəyanatların qəbul olunmasına nail oldu.

Bütövlükdə, Ümummilli Lider Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi. Başqa sözlə, Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf dövrü kimi tarixə düşüb.

### ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ƏSASINI QOYDUĞU SİYASƏT PREZİDENT İLHAM ƏLİYEV TƏRƏFİNDƏN UĞURLA DAVAM ETDİRİLİR

Bu gün sabitlik adası kimi tanınan və yüksək beynəlxalq nüfuza malik olan Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan ötən müddət ərzində möhtəşəm nailiyyətlər qazanıb, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Son 16 il ərzində ölkəmizin valyuta ehtiyatları artıb, müxtəlif sahələri əhatə edən layihələr uğurla reallaşdırılıb, çoxşaxəli islahatlar aparılıb, milli iqtisadiyyatımızın rəqabətqabiliyyətliliyi olduqca artıb. Bu gün Azərbaycanın inkişaf modeli mütərəqqi nümunə kimi səciyyələndirilir. Əldə edilən möhtəşəm nailiyyətlər Azərbaycanın iqtisadi, siyasi və hərbi qüdrətinin, bütövlükdə milli gücünün artmasını təmin edib.

Eyni zamanda, Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb, strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı artır. Regional güc mərkəzi olan ölkəmizin təşəbbüsü və liderliyi ilə gerçəkləşdirilən geostrateji layihələr regional, beynəlxalq əməkdaşlığa və təhlükəsizliyə fundamental töhfələr verir. Ümumiyyətlə, Azərbaycan nəinki yerləşdiyi regionda, həm də bütövlükdə Avrasiya geosiyasi məkanında işbirliyinə, təhlükəsizliyə xidmət edən strateji əhəmiyyətli layihələrin reallaşdırılmasında aparıcı rola malikdir. Təsadüfi deyil ki, açıq dənizə çıxışı olmayan Azərbaycan Avrasiyada nəqliyyat mərkəzinə çevrilib. Bunun qanunauyğun nəticəsidir ki, Azərbaycan hazırda regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Bu gün Azərbaycan sahib olduğu zəngin enerji ehtiyatlarından səmərəli şəkildə istifadə etməklə, beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan aparıcı dövlətlərdəndir. Azərbaycanın iştirakı olmadan regionda heç bir layihə gerçəkləşdirilə bilməz. Hazırda Azərbaycan sahib olduğu bütün bu üstünlüklərlə milli dövlətlərin, o cümlədən güc mərkəzlərinin uzunmüddətli perspektiv üçün əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə can atdığı tərəfdaş ölkələrdəndir.

Bütövlükdə, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, Azərbaycan möhtəşəm nailiyyətlər əldə edərək yeni zirvələr fəth edir.

**Nurlan QƏLƏNDƏRLİ**

# "Minsk 2019"un birinci günündə Azərbaycanın dörd idmançısı mübarizə aparıb










İyunun 21-də - Minskdə keçirilən ikinci Avropa Oyunlarının birinci günündə Azərbaycanın dörd idmançısı mübarizə aparıb.

AZƏRTAC xəbər verir ki, kişi boksçuların mübarizəsində Tayfur Əliyev (56 kq), Rahil Məmmədli (91 kq) və Məhəmməd Abdullayev (+91 kq) rinqə çıxıblar. Kamandan oxatma yarışında isə ölkəmizin yeganə təmsilçisi Ozay Qasımova mübarizəyə qoşulub.

Boksçularımızdan ilk olaraq Tayfur Əliyev (56 kq) rinqə çıxıb. O, onaltıdabir finalda bolqarıstanlı Boyan Asenova 3:2 hesabı ilə qalib gəlib.

Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov, Gənclər və İdman naziri Azad Rəhimov, Azərbaycan Boks Federasiyasının vitse-prezidenti Süleyman Mikayılov və nümayəndə heyətimizin üzvləri boksçumuzun qarşılaşmasına baxıblar.

Səkkizdəbir finalda Tayfur Əliyevin rəqibi ukraynalı Mikola Butsenko olacaq. Həmin qarşılaşma iyunun 24-də keçiriləcək.

Oyunların birinci günündə rinqə çıxan digər iki boksçumuz Rahil Məmmədli (91 kq) və Məhəmməd Abdullayev (+91 kq) da Bolqarıstan idmançıları ilə qarşılaşıblar. Hər iki idmançımız ilk görüşdə rəqiblərinə uduzublar.

Ozay Qasımova klassik kamandan oxatma üzrə reytinq yarışında 586 xal toplayıb. İdmançımız bu nəticə ilə otuzikidəbir finala vəsiqə qazanıb. O, iyunun 25-də otuzikidəbir finalda Almaniya təmsilçisi Elena Rixter ilə qarşılaşacaq.

# Nazirlər Kabinetində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının 8-ci iclası keçirilib



İyunun 21-də Nazirlər Kabinetində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının səkkizinci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov iclasın gündəliyində duran məsələlərdən danışıb. O, iclasın əsas məqsədinin BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna təqdim olunacaq ikinci Könüllü Milli Hesabatın təqdimatı və təsdiq edilməsi, həmçinin Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının fəaliyyətinin səmərəli təşkili məqsədilə dövlət orqanlarının nümayəndələrindən ibarət işçi qruplarının tərkibinə yeni qurumların nümayəndələrinin daxil edilməsi məsələləri olduğunu deyib.

İkinci Könüllü Milli Hesabatın təqdimatının hazırlanması barədə məlumat verən Baş Nazirin müavini bildirib ki, Azərbaycan BMT-yə dayanıqlı inkişaf üzrə ikinci hesabat verən 14 ölkədən biri olacaq. Azərbaycanın sürətlə dəyişən gənc bir ölkə kimi bütün nailiyyətləri, eləcə də ölkəmizdə insan amilinin inkişaf etdirilməsi ilə bilavasitə əlaqədar olan məsələlər bu hesabatda öz əksini tapıb. Sənəddə Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda sosial sahədə həyata keçirilən islahatlar, ölkə vətəndaşlarının sosial rifahının artımı üçün görülən tədbirlər geniş qeyd olunub. Sənədin yüksək peşəkarlıqla hazırlandığını deyən Baş Nazirin müavini bu sahədə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının tərkibində yaradılan işçi qruplarının fəaliyyətini də təqdirəlayiq qiymətləndirib.

Sonra gündəlikdəki hər iki məsələ ilə bağlı Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov təqdimat edib.

Təqdimatdan sonra Şura üzvlərinin çıxışları olub.

İclasda Milli Əlaqələndirmə Şurasının fəaliyyətə başladığı dövrdən sonra kifayət qədər işlərin görüldüyü və qarşıya qoyulan mühüm vəzifələrin yerinə yetirildiyi bildirilib.

Daha sonda ikinci Könüllü Milli Hesabat, həmçinin Şuranın dövlət orqanlarının nümayəndələrindən ibarət işçi qruplarının tərkibinə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndələrinin daxil edilməsi məsələsi Şura tərəfindən təsdiqlənib.

# Minskdə MDB İqtisadi Şurasının 82-ci iclası keçirilib

İyunun 21-də Belarusun paytaxtı Minskdə MDB İqtisadi Şurasının 82-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov iclasda iştirak edib.

İclasda MDB ölkələrində azad ticarət xidmətlərinin, azad ticarət zonasının yaradılması, bir sıra maliyyə və təşkilati məsələlər müzakirə edilib. Qeyd edilib ki, 2019-cu ilin sonuna qədər azad ticarət xidmətləri ilə bağlı saziş layihəsinin müzakirəsi başa çatdırılacaq. Artıq bir neçə ildir bu saziş layihəsi üzərində müzakirələr getdiyi və bununla bağlı MDB ölkələri arasında ümumi razılaşmalar olduğu bildirilib.

İclasda MDB ölkələri arasında iqtisadi əməkdaşlığın perspektivləri də müzakirə olunub.

# YAP-ın Mərkəzi Qərargahında partiyanın Nərimanov və Nizami rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib







İyunun 21-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Qərargahında partiyanın Nərimanov və Nizami rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib. Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov ölkəmizin ictimai-siyasi, iqtisadi, sosial həyatında baş verən mühüm dəyişikliklər haqqında geniş məlumat verib. Əli Əhmədov qeyd edib ki, ictimai-siyasi həyatda sabitliyin möhkəmlənməsi ilə bərabər iqtisadi inkişaf uğurla davam etməkdədir və ümumi iqtisadi inkişafın artım tempi yüksəlir.

Baş nazirin müavini Prezident İlham Əliyevin insanların rifahının yüksəlməsi naminə atdığı addımların cəmiyyətimiz tərəfindən yüksək dəyərləndirildiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, Azərbaycanı daha firavan gələcək, vətəndaşı daha yüksək rifah gözləyir. Məqsədimiz bu gələcəyə doğru inamla və qətiyyətlə irəliləməkdir.

YAP Sədrinin müavini Əli Əhmədov vurğulayıb ki, Azərbaycanın qazandığı möhtəşəm uğurlar hər bir vətəndaşımıza sevinc və qürur hissi bəxş edir. Lakin çox təəssüf ki, bu nailiyyətləri gözü götürməyən qüvvələr də vardır. Buna görə də hər bir Azərbaycan vətəndaşı, o cümlədən partiyamızın üzvləri həyata keçirilən dövlət siyasətinin uğurlarını daha geniş şəkildə təbliğ etməlidirlər.

YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov, həmçinin partiya həyatı ilə bağlı müşavirə iştirakçılarına müvafiq tövsiyə və tapşırıqlarını verib.

# Avstriya Mətbuat Agentliyi "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda konfransla bağlı məqalə yayıb


APA OTS

**Konferenz "Von der interreligiösen und gesellschaftsübergreifenden Zusammenarbeit zur menschlichen Solidarität"**

*Wien (OTS)* - Mit gemeinsamer Organisation durch das Baku Internationale Zentrum für interreligiöse und gesellschaftsübergreifende Zusammenarbeit, das Internationale Zentrum für interreligiösen und interkulturellen Dialog KAICIID, das Genfer Zentrum für Menschenrechte und globalen Dialog und die Botschaft der Republik Aserbaidschan in der Republik Österreich wurde eine internationale Konferenz zum Thema „Von der interreligiösen und gesellschaftsübergreifenden Zusammenarbeit zur menschlichen Solidarität" am 19. Juni 2019 im Hofburg Palace in Wien abgehalten. An Veranstaltung haben Vertreter der Regierung, des Parlaments, der internationalen Organisationen sowie Nichtregierungsorganisationen, Vertreter der Wissenschaft, religiöser Konfessionen aus Österreich und aus mehr als 30 Ländern, sowie die Vertreter der in Österreich akkreditierten Botschaften und internationalen Organisationen teilgenommen. Die Aserbaidschanische Delegation unter der Leitung des Vorstehers der Verwaltung der Muslime des Kaukasus, Generalsekretärs von „Baku Internationales Zentrum für interreligiöse und gesellschaftsübergreifende Zusammenarbeit" Sheikh-ül-Islam A. Pashazade und des Beraters des Staatspräsidenten der Republik Aserbaidschan Ali Hasanov war durch verschiedene Vertreter der Regierung, des Parlaments, der Wissenschaft und Religion vertreten.

Die Organisation der internationalen Konferenz basiert auf der Notwendigkeit der Förderung des multikulturellen Models und der Entwicklung des interreligiösen und gesellschaftsübergreifenden Dialogs und der Zusammenarbeit sowie auf Lösung von Problemen, die die moderne Welt beunruhigen. Die internationale Konferenz in Österreich, das ein führendes europäisches Land ist und wo diverse Kulturen und Religionen vertreten sind, dient zur Steigerung der Aufmerksamkeit der Weltgemeinschaft auf globaler Ebene auf dieses wichtige Thema, zur Förderung des Friedens und Sicherheit, insbesondere zur Demonstrierung einer gemeinsamen Position durch Vertreter unterschiedlicher Kulturen, Zivilisationen und Religionen gegen interreligiöse Konflikte.

Bild, 7MB
Bild, 7MB
Bild, 6MB
Bild, 7MB
Bild, 10MB
Bild, 89KB

Avstriya Mətbuat Agentliyi (APA) iyunun 19-da Vyanada keçirilmiş "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda konfransla bağlı məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə konfransın Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin, Cenevrə İnsan Hüquqları və Qlobal Dialoq Mərkəzinin və Azərbaycanın Avstriyadakı səfirliyinin birgə təşkilatçılığı ilə baş tutduğu qeyd edilib. Bildirilib ki, nüfuzlu beynəlxalq konfransda Avstriya və dünyanın 30-dan çox ölkəsindən hökumət, parlament üzvləri, beynəlxalq qurumların, qeyri-hökumət təşkilatlarının, iqtisadi dairələrin, dini konfessiyaların təmsilçiləri, eləcə də Vyanada akkreditə olunmuş səfirlik və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Qafqaz Müsəlmanları İdarəsinin sədri, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin baş katibi Şeyxülislam Allahşükür Paşazadənin və Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun rəhbərlik etdikləri Azərbaycan nümayəndə heyətinin tərkibində hökumət və parlament təmsilçiləri, elm və din xadimləri yer alıblar.

Məqalədə qeyd edilib ki, beynəlxalq konfransın təşkili multikulturalizm modelinin təbliğinin bəşəri önəminə diqqət çəkmək, dinlərarası və sivilizasiyalararası dialoq və əməkdaşlığın inkişaf etdirilməsinin müasir dünyanı narahat edən problemlərin aradan qaldırılmasında əhəmiyyətini vurğulamaq məqsədini daşıyır. Avropanın aparıcı dövləti olan və müxtəlif mədəniyyətlərin, dinlərin təmsil olunduğu Avstriyada keçirilən beynəlxalq konfrans qlobal əhəmiyyət kəsb edən bu mövzuya dünya ictimaiyyətinin diqqətini daha da artırmaq, sülhü və əmin-amanlığı təhdid edən amillərə, xüsusilə dinlərarası ixtilaflara qarşı müxtəlif mədəniyyətlərin, sivilizasiyaların və dinlərin nümayəndələrinin birgə mövqeyini nümayiş etdirmək məramına xidmət edir. Konfransda Azərbaycan Respublikası Prezidentinin beynəlxalq konfransın iştirakçılarına müraciəti oxunub. Müraciətdə Vyana beynəlxalq konfransında aparılan müzakirələrin və verilən konstruktiv təkliflərin dünyada dinlərarası dialoqun təbliğinə, mədəniyyətlərarası harmoniyanın güclənməsinə, sülhə və qarşılıqlı anlaşmaya töhfələr verəcəyinə əminlik ifadə olunub.

Diqqətə çatdırılıb ki, tədbirdə, həmçinin BMT Baş katibinin müavinləri Migel Angel Moratinos və Rəşid Xalikov çıxış ediblər. Şeyxülislam Allahşükür Paşazadə öz çıxışında Azərbaycanda milli və bəşəri dəyərlərə, multikulturalizm ənənələrinə böyük önəm verildiyini, müxtəlif mədəniyyətlər və dinlər arasında əməkdaşlığın dövlət səviyyəsində dəstəkləndiyini bildirib. O, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal olunmuş ərazilərimizdə tarixi, mədəni və dini abidələrin məhv edildiyini diqqətə çatdıraraq, münaqişənin beynəlxalq hüququn normaları əsasında sülh yolu ilə həllinin vacibliyini, BMT-nin məlum qətnamələrinin yerinə yetirilməsinin və ATƏT-in Minsk qrupunun öz səylərini artırmasının zəruriliyini vurğulayıb. Vyana konfransında Azərbaycanın sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafında rolunu və multikulturalizm dəyərlərini əks etdirən "Bəşəri çağırış" filmi nümayiş etdirilib.

Vurğulanır ki, tədbirin sonunda beynəlxalq konfransın iştirakçıları yekun sənəd - Vyana Bəyannaməsi qəbul ediblər. Sənəddə qeyd olunur ki, müasir dünyada humanist ideyaların təşviqi və multikultural həyat tərzinin təbliği baxımından önəm kəsb edən belə forumların davamlı keçirilməsi olduqca aktual və zəruridir.

# Jurnalistika fakültəsinin magistrantları dissertasiya işlərini müdafiə ediblər



İyunun 21-də Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində magistratura səviyyəsi üzrə dissertasiya işlərinin müdafiəsi keçirilib. Magistrantlara uğurlar arzulayan müdafiə şurasının sədri, tanınmış jurnalist, Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının prezidenti, Dünya Xəbər Agentlikləri Konqresi Bürosunun üzvü Aslan Aslanov magistrantların uğurlu işlər ərsəyə gətirdiyini xüsusi vurğulayıb. Müdafiə şurasının sədri deyib: **"Çox istərdim ki, jurnalistika fakültəsinin yuxarı kurs tələbələri universitet auditoriyalarında qazandıqları nəzəri bilikləri ölkənin aparıcı KİV-lərində əməli təcrübə ilə daha da möhkəmləndirsinlər. Gələcəyin jurnalistləri daha çox dil bilməli, arxivlərdə işləməyi bacarmalı, müasir informasiya texnologiyalarından daha mükəmməl istifadə vərdişlərinə yiyələnməlidirlər. Bunlara isə mətbu qurumlarda intensiv təcrübə yolu ilə yiyələnmək mümkündür".**

İdarə Heyətinin sədri AZƏRTAC ilə BDU-nun jurnalistika fakültəsi arasında müqavilə bağlanmasını təklif edib. Belə ki, fakültənin 10-15 bakalavr və magistrantı Agentlikdə uzunmüddətli istehsalat təcrübəsi keçər, redaksiyaların iş prinsipi ilə tanış olar, xəbər istehsalı prosesində iştirak edər və biz özünü doğruldan məzunları işə götürə bilərik. A.Aslanov məzunlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra 7 magistrant "XX əsrin əvvəllərində Azərbaycanda çıxan bir mətbu orqanın transliterasiyası", "Kaspi" - müasir mətbuatın müstəqil qəzet modeli kimi", "Bədii publisistika sənədlilik və müəllif təxəyyülü kontekstində", "Azərbaycan satirik jurnalistikasında xalq yaradıcılığından istifadənin forma və metodları", "Müasir mətbuatda vətənpərvərlik mövzuları", "Dövlətçiliyin və milli maraqların qorunmasında medianın rolu", "Azərbaycan publisistikasında müstəqillik ideyaları ("Odlar Yurdu" və "Yeni fikir" qəzetlərinin materialları əsasında. 1988-1991)" mövzularında dissertasiya işlərini müdafiə edib. Onlar dissertasiya işləri ilə bağlı sualları cavablandırdıqdan sonra opponent rəyləri dinlənilib.

Jurnalistika fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru Vüqar Zifəroğlu magistrantların dissertasiya işlərinin müdafiəsində AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovun iştirakını, təklif və tövsiyələrini yüksək qiymətləndirib, müdafiəyə buraxılan işlər haqqında müsbət fikirlərini söyləyib.

# Bakıda "Qadın sahibkarlığının inkişafı: təcrübə, imkanlar və nailiyyətlər" mövzusunda beynəlxalq forum keçirilib








İyunun 21-də Bakıda "Qadın sahibkarlığının inkişafı: təcrübə, imkanlar və nailiyyətlər" mövzusunda beynəlxalq forum keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlət himninin səsləndirilməsindən sonra tədbirdə sahibkar qadınların fəaliyyətinə həsr edilən videoçarx nümayiş olunub.

Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov forumda çıxış edərək bildirib ki, Azərbaycan qadınları ictimai-siyasi həyatda olduğu kimi, sahibkarlığın inkişafına da öz töhfələrini verir. Ölkəmizə gələn qonaqlar iqtisadiyyatımızın inkişafına dair geniş məlumatlara sahibdirlər. Azərbaycanın böyük iqtisadi göstəricilərə malik olduğunu deyən Ə.Əhmədov qeyd edib ki, ölkəmiz dünyada və regionda iri layihələrin müəllifidir.

Baş Nazirin müavini bildirib ki, iqtisadiyyatın inkişafına təsir edən amillərdən biri də kiçik və orta sahibkarlığın inkişafıdır. Bunun üçün hökumət tərəfindən geniş imkan yaradılıb. Hökumət qadın sahibkarlığının inkişaf etdirilməsinə də daim dəstək göstərir. Uşaq bağçalarının, istehsal müəssisələrinin sayı artırılır. Bu gün qadınlar öz güclərini orta və kiçik sahibkarlıq sahəsində göstərirlər. Bundan sonra qadınlarımız iri sahibkarlıq sahəsində də öz bacarıqlarını nümayiş etdirməlidirlər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Azərbaycanda qadın sahibkarlığının inkişafına göstərdikləri dəstəkdən danışıb. Qadın sahibkarlığının inkişafı istiqamətində görülən işləri qeyd edən komitə sədri əlavə edib ki, bu işə başlananda cəmi 4 faiz sahibkar qadın var idi. Bu gün bu statistika artıb. Bunun üçün qanunvericilik bazası yaradılıb. Qadın sahibkarlığının inkişafı üçün resurs mərkəzləri yaradılıb. Bu mərkəzlərin fəaliyyətə başlaması üçün BMT və digər beynəlxalq təşkilatlar tərəfindən dəstək verilib. Bundan başqa, beynəlxalq konfranslar keçirilib ki, bu da xarici təcrübənin ölkəmizdə tətbiqinə şərait yaradıb. Layihələrə məcburi köçkün xanımlar da cəlb olunublar.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai qadın sahibkarlığının inkişaf etdirilməsinin önəmindən söhbət açıb. O bildirib ki, bir ölkədə qadın sahibkarlığının inkişafı həmin ölkədə ümumi daxili məhsulun artmasına kömək edə bilər. Bu, eyni zamanda, gender bərabərliyinin də inkişafına yol açar. Azərbaycanda qadınların fəaliyyəti üçün lazımi qanunverici baza yaradılıb. Ölkədə sahibkar qadınların sayının artırılması üçün əlverişli şərait mövcuddur. Azərbaycanda lider qadınlar çoxluq təşkil edir.

BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsi Alessandro Frakassetti qeyd edib ki, qadın sahibkarlar XXI əsrin böyük qüvvəsidir. Müasir dünyada qadınlar iqtisadiyyatın müxtəlif sahələrində mühüm yerlərə sahib olur. BMT qadınların səlahiyyətləndirilməsində mühüm layihələr həyata keçirir. Azərbaycan hökuməti də bu işdə BMT-yə böyük dəstək nümayiş etdirir. Ölkədə qadın resurs mərkəzlərinin yaradılması təqdirəlayiqdir.

İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Elmira Süleymanova Şərqdə ilk dəfə qadınlara seçib-seçilmək hüququnun 1918-ci ildə Azərbaycanda verildiyini xatırladıb. Azərbaycanda qadınlara yaradılan imkanlar hələ həmin vaxtlardan start götürüb. Bu gün Azərbaycan hökuməti tərəfindən qadınlara siyasət və iqtisadiyyat sahələrində geniş imkanlar yaradılıb. Qadınlar artıq turizm, sənaye və aqrar sahələrdə böyük nailiyyətlər qazanıblar. Qadınların rahat şəkildə fəaliyyət göstərmələri üçün Azərbaycan Hökuməti onlar üçün zəngin qanunvericilik bazası yaradıb.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova qeyd edib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı prinsiplərinə uyğun iqtisadiyyat formalaşdırıb. Azərbaycan Prezidenti tərəfindən sahibkarlara münbit biznes mühiti yaradılıb. Bununla yanaşı, ölkədə orta və kiçik sahibkarlığın inkişafı üçün imkanlar yaradılıb. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Ölkəmizdə sahibkar qadınlara münbit şərait yaradılıb. Bu gün ölkədə qadın sahibkarlara aid müxtəlif istehsal sahələri fəaliyyət göstərir. Qadın sahibkarların fəaliyyətlərinin genişləndirilməsi üçün hökumət onlara güzəştli kreditlər verib.

Rusiyanın Həştərxan vilayət Dumasının deputatı İrina Brıntseva qadın sahibkarların iqtisadiyyatdakı yerindən danışıb. Rusiyada qadın sahibkarların fəaliyyətindən danışan deputat qeyd edib ki, dövlətin dəstəyi ilə xanım iş adamlarının sayı çoxluq təşkil edir. Rusiyalı deputat vurğulayıb ki, Azərbaycanda da bu sahə inkişaf edir. Ölkədə böyük nailiyyətlər əldə etmiş sahibkar qadınların sayı kifayət qədərdir.

Daha sonra fəal sahibkar qadınlar mükafatlandırılıb.

Forum müxtəlif mövzular üzrə panellərlə davam edib.

# Bakıda QDİƏT Parlament Məclisi Baş Assambleyasının 53-cü iclası işini başa çatdırıb







İyunun 21-də Milli Məclisdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi (QDİƏT PM) Baş Assambleyasının 53-cü plenar sessiyası öz işini davam etdirib.

AZƏRTAC xəbər verir ki, "Qara dəniz İqtisadi Əməkdaşlığına üzv ölkələrdə demokratiyanın möhkəmlənməsində ombudsman institutlarının rolu" mövzusunda məruzənin müzakirəsi zamanı çıxış edən Milli Məclisin Aqrar siyasət komitəsinin sədr müavini, QDİƏT Parlament Məclisindəki nümayəndə heyətinin rəhbəri Eldar Quliyev Azərbaycanda Ombudsman institutunun yaranması, fəaliyyəti və ölkəmizin insan hüquqları sahəsində əldə etdiyi nailiyyətlərdən danışıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan E.Quliyev qeyd edib ki, Azərbaycan problemin sülh yolu ilə həllinin tərəfdarıdır. Deputat Ermənistanda girov saxlanılan Şahbaz Quliyev və Dilqəm Əsgərovun məsələsinə də toxunub. Bildirib ki, ermənilər işğal altında olan Azərbaycan ərazilərinə əzizlərinin məzarlarını ziyarətə gedən azərbaycanlılardan birini öldürüb, ikisini isə girov götürüb. Bütün bunlar bir daha göstərir ki, Ermənistan qeyri-konstruktiv mövqe nümayiş etdirir. Cəbhə bölgəsində atəşkəsin olmasına baxmayaraq, Azərbaycan itkilərə məruz qalır.

QDİƏT PM-də Türkiyə nümayəndə heyətinin rəhbəri Camal Öztürk və Rusiya nümayəndə heyətinin rəhbəri Mixail Yemelyanovun fikirləri dinlənildikdən sonra "Qara dəniz İqtisadi Əməkdaşlığına üzv ölkələrdə demokratiyanın möhkəmlənməsində ombudsman institutlarının rolu" mövzusunda məruzə və məruzəyə dair tövsiyələr səsə qoyularaq qəbul edilib.

Sonra iclasda "Qara dəniz İqtisadi Əməkdaşlığına üzv ölkələrdə pensiya təminatı sistemləri" mövzusunda müzakirələr aparılıb. Çıxış edən QDİƏT PM-də Azərbaycan nümayəndə heyətinin üzvü Musa Quliyev Azərbaycanda aparılan pensiya islahatları, pensiya təminatı sistemi, bu sahədə tətbiq olunan yeniliklər barədə məlumat verib.

Serbiya nümayəndə heyətinin üzvü Aleksandra Belaçiç və Türkiyə nümayəndə heyətinin üzvü Metin Gündoğanın çıxışları dinlənildikdən sonra məruzə və ona dair tövsiyələr səsə qoyularaq qəbul edilib.

İclasda təşkilatın 2018-ci maliyyə ili üçün auditor hesabatı dinlənilib, 2019-cu ildə Baş Assambleyanın payız sessiyasının keçirilmə yeri, vaxtı və gündəliyi müəyyən edilib.

Tədbirin sonunda iclasa sədrlik edən Ukrayna nümayəndə heyətinin rəhbəri Refat Çubarov 53-cü Baş Assambleyanın yüksək səviyyədə keçirilməsinə görə Milli Məclisin sədri Oqtay Əsədova təşəkkürünü bildirib.

Bununla da Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi (QDİƏT PM) Baş Assambleyasının Bakıda keçirilən 53-cü plenar sessiyası işini başa çatdırıb.

# Ölkəmizdə sosial sahədə inqilabi addımların növbəti mərhələsi başlayıb

*Ekspertlər hesab edirlər ki, Prezident İlham Əliyevin imzaladığı sosial paket bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin davamıdır*



***Cavanşir Paşazadə:*** *Respublikamızda əhalinin sosial müdafiəsinin gücləndirilməsi siyasəti ardıcıl xarakter daşıyır*



***Musa Quliyev:*** *Prezident İlham Əliyevin ölkədə sosial rifahın yüksəldilməsi üçün imzaladığı ikinci sosial islahatlar paketi miqyasına görə olduqca genişdir*



***Məlahət İbrahimqızı:*** *Azərbaycanın hər bir vətəndaşının rifahının yaxşılaşdırılması Prezidentimizin uğurla həyata keçirdiyi siyasətin əsas məqsədidir*

Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər davam etdirilir. Xəbər verildiyi kimi, Prezident İlham Əliyev iyunun 18-də minimum əməkhaqqının, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında sərəncamlar imzalayıb. Bu sərəncamlar ölkəmizdə həyata keçirilən uğurlu sosial siyasətin bariz nümunələridir.

Məsələ ilə bağlı Milli Məclisin deputatı Cavanşir Paşazadə bildirib ki, ölkəmizin məqsədyönlü siyasətini cəmiyyətdən, xalqdan aldığı sifarişlər əsasında formalaşdıran Prezident İlham Əliyev qarşıya respublikamızda sosial vəziyyəti dünyanın inkişaf etmiş ölkələrindəki səviyyəyə çatdırmaqla bağlı mühüm vəzifə qoyub. Dövlət başçısının müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq ölkəmizin uğurlu sosial dövlət modeli formalaşdırılıb. Respublikamızda əhalinin sosial müdafiəsinin gücləndirilməsi siyasətinin ardıcıl xarakter daşıdığını deyən C.Paşazadə vurğulayıb: **“Respublikamızda 2019-cu ilin əvvəlindən isə ötən il anonsu verilən böyük sosial paketin icrası aktiv fazaya daxil olub. İlin əvvəlindən bəri dövlət başçısı bilavasitə ölkə vətəndaşlarının həyat səviyyəsinin daha da yüksəldilməsinə, onları narahat edən müxtəlif sosial məsələlərin həllinə yönələn çoxlu sayda Fərman və sərəncamlar imzalayıb. Biz bu sırada dövlət başçısının imzaladığı sənədlər əsasında müvafiq kateqoriyadan olan şəhid ailələrinə birdəfəlik ödəmələrin verilməsini, problemli kreditlər məsələsinin həllini tapmasını, bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsini, əməkhaqlarının, pensiyaların, tələbə təqaüdlərinin, müavinətlərin artırılmasını və digər belə tədbirləri qeyd edə bilərik. Sosial sferada atılan bu kimi addımlar bilavasitə insanların rifah halının yaxşılaşdırılmasına, onların gəlir imkanlarının artırılmasına hesablanıb. Bütövlükdə deyə bilərik ki, 2019-cu ilin əvvəlindən bəri Prezident İlham Əliyevin müvafiq sosial paket çərçivəsində imzaladığı qanunvericilik aktları 3 milyona yaxın insanın sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi addım oldu və bu məqsədlər üçün 1,5 milyard manat vəsait ayrıldı. Dövlət başçısının müxtəlif sahələrdə çalışan işçilərin əməkhaqlarının artırılması ilə bağlı imzaladığı yeni sərəncamlarla isə sosial sahədə inqilabi addımların növbəti mərhələsi başlayıb”.**

Millət vəkili bildirib ki, Prezident İlham Əliyev əslində imzaladığı yeni sənədlərlə əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə növbəti sosial paketi bəyan edib. Respublikamızda dövlət büdcəsindən maliyyələşən ayrı-ayrı təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 40 faiz artırılması nəzərdə tutulur. Əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılması müvafiq kateqoriyadan olan insanların sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını daha da artırmaq məqsədinə xidmət edir. Eləcə də minimum əməkhaqqı 250 manata çatdırılıb. Millət vəkilinin sözlərinə görə, yeni sosial paket ölkə Prezidentinin “Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır” tezisini bir daha təsdiq edir.

**“Prezident İlham Əliyevin ölkədə sosial rifahın yüksəldilməsi üçün imzaladığı ikinci sosial islahatlar paketi miqyasına görə olduqca genişdir. Həyata keçirilən sosialyönümlü siyasət nəticəsində ölkəmizin iqtisadi potensialı artdıqca vətəndaşların həyat şəraiti yaxşılaşır, rifahı daha da yüksəlir. İkinci sosial paket əhaliyə gəlirlərini artırmağa şərait yaradacaq”.** Bu fikirləri isə Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü Musa Quliyev deyib. M.Quliyev bildirib ki, ayrı-ayrı vaxtlarda ölkəmizdə minimum əməkhaqqı qaldırılıb. Lakin dövlətçilik tarixində ilk dəfə olaraq minimum əməkhaqqı bir ilin ərzində iki dəfədən çox artırılıb. Prezidentin Sərəncamından sonra minimum əməkhaqqının 250 manata çatdırılması ilə onun alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB məkanında ikinci yerə yüksəlir. Millət vəkilinin fikrincə, bütövlükdə həmin sərəncamlar 2 milyondan çox vətəndaşın sosial rifahının yaxşılaşdırılmasına xidmət edəcək.

Millət vəkili daha sonra deyib: **“Orta təbəqə bütün dünyada ictimai-siyasi sabitliyin buferi sayılır. Hansı dövlətdə orta təbəqə böyükdürsə, orada uzun müddət sabitlik olur, narazılıq baş vermir, sosial ədalət daha çox təmin edilir. Qütbləşmə çox olanda isə istər iqtisadi, istərsə də sosial-siyasi böhranlar baş verir. Ölkə Prezidentinin son Sərəncamında minimum əməkhaqqının 250 manata qaldırılması əsasən az əməkhaqqı alan və orta səviyyədən aşağı yaşayanların sosial rifahının yaxşılaşdırılmasına hədəflənib. Minimum əməkhaqqının yüksəlməsi ilə orta təbəqənin sahəsi genişlənir və bu, sosial harmoniyanın, sosial ədalətin bariz şəkildə təmin olunmasına gətirib çıxarır”.**

**“Son sərəncamlardan sonra Azərbaycan dövlətçilik tarixində ilk dəfə olaraq minimum əməkhaqqı yaşayış minimumunu üstələdi və ondan yuxarı qalxdı”,** - deyə deputat qeyd edib.

**“Dövlət başçısının imzaladığı sosial xarakterli sərəncamlar bir daha təsdiqləyir ki, cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidentidir”.** Bu fikri isə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Məlahət İbrahimqızı deyib. M.İbrahimqızı bildirib ki, bu günədək həyata keçirilmiş uğurlu siyasətin fəlsəfəsi də bu təməl üzərində qurulub. Onun sözlərinə görə, Azərbaycanın hər bir vətəndaşının rifahının yaxşılaşdırılması məhz Prezidentimizin uğurla həyata keçirdiyi siyasətin əsas məqsədidir: **“İyunun 18-də dövlət başçısı sosial sahədə inqilabi xarakterli sərəncamlar imzaladı. Əslində, ictimaiyyət üçün cənab Prezident tərəfindən imzalanan bu sərəncamlar gözləniləndir. Biz xronoloji olaraq, 2003-cü ildən bu günə qədərki imzalanan bütün sənədlərə və həyata keçirilən islahatlara, eləcə də Dövlət proqramlarına diqqət yetirsək, görərik ki, əsas ana xətti xalqın rifahı və firavanlığı təşkil edir. Bu mənada təkcə bu ilin əvvəlindən başlayaraq, imzalanan sənədlər bunları tam və qabarıq şəkildə əks etdirir”.**

Millət vəkili qeyd edib ki, əhalinin həyat səviyyəsi gündən-günə yaxşılaşır. İndiyədək əməkhaqqı və pensiyaların dəfələrlə artdığını vurğulayan M.İbrahimqızı bu gerçəkliyin ictimaiyyət tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb: **“Əslində, 2019-cu il ölkəmizdə, sözün həqiqi mənasında, sosial rifah və firavanlıq ili adlandırılır. Əhalinin sosial müdafiəsi sahəsində ardıcıl olaraq daha qətiyyətli və zəruri qərarların qəbul edilməsi beynəlxalq ekspertlər tərəfindən də təqdir edilir. Bu ilin əvvəlində minimum əməkhaqqı və pensiyaların təxminən 40 faiz artırılmasını da nəzərə alsaq, əslində növbəti sərəncamla təxminən artım 100 faizə çatır. Minimum əməkhaqqının artırılması yüz minlərlə insanın maaşının 270-350 manata qədər artdığını göstərir. Ən vacibi isə, minimum əməkhaqqının 250, minimum pensiyaların isə 200 manat məbləğində müəyyən edilməsidir. Qısaca olaraq, ölkədə hər bir ailəni əhatə edən bu qərarları inqilabi addımlar kimi səciyyələndirə bilərik”.**

**Nardar BAYRAMLI**

# Pərvin Kərimzadə: 2019-cu il sosial inkişaf ili kimi öz təsdiqini tapdı



2019-cu il Azərbaycanın tarixinə sosial müdafiə və sosial rifah ili kimi daxil oldu. Əhalinin sosial müdafiəsinin daha da güclənməsi ilə xarakterizə olunan bu ilin ilk ayında atılan addımlar, imzalanan fərman və sərəncamlar insan amilinin Prezident İlham Əliyevin uğurlu siyasətinin mərkəzində dayandığını bir daha təsdiq etdi. Sevindirici haldır ki, 2017-ci il iqtisadiyyatımızın sabitləşməsi, 2018-ci il iqtisadi inkişaf kimi xalqımızın tarixinə düşdüsə, 2019-cu il sosial inkişaf və rifah ili kimi öz təsdiqini tapdı.

Bu fikirləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Milli Məclisin deputatı, Gəncə Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru Pərvin Kərimzadə deyib.

Deputat bildirib ki, Prezident İlham Əliyevin 2019-cu il 18 iyun tarixli Sərəncamı ilə sentyabrın 1-dən minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılması, dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz, hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılması ölkədə həyata keçirilən siyasətin mərkəzində insan amilinin olduğunu bir daha sübut etdi.

**“Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına, dövlət büdcəsinin imkanlarına uyğun həyata keçirilən inqilabi islahatlar həm də təsdiq etdi ki, ölkəmizin güclü iqtisadi imkanları var. Bu gün sosial sahədə atılan addımların təməlində Heydər Əliyev siyasi məktəbinin ən istedadlı yetirməsi olan Prezident İlham Əliyevin düşünülmüş islahatları və müdrik qərarları dayanır”,** - deyə P.Kərimzadə qeyd edib.

# Azərbaycanda təhsil işçilərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir

*Prezident İlham Əliyevin bu günlərdə imzaladığı müvafiq sərəncamlar bu istiqamətdə atılan addımların mühüm tərkib hissəsidir*

Məlum olduğu kimi, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasət, həmçinin sosial müdafiə sahəsində atılan mühüm addımlar əhalinin bütün kateqoriyalarını, o cümlədən müəllimləri də əhatə edir. Dövlət başçısının iyunun 18-də imzaladığı



***Almaz Bayramova:*** *Azərbaycanda təhsilin inkişafı sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilib*



***Fazil İsmayılov:*** *Ölkəmizdə Peşə təhsilinin inkişaf etdirilməsi diqqət mərkəzindədir*

“Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında” və “Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında” sərəncamlar isə bu istiqamətdə atılan növbəti mühüm addımdır.



***Ceyran Quliyeva:*** *Ölkədə təhsil sahəsində davamlı olaraq əməkhaqqı artımı, işə qəbulun şəffaf təşkili bu peşəyə marağı ilbəil artırır*



***Əsli Yusifova:*** *Azərbaycanda təhsil işçilərinin maddi rifah halının daha da yaxşılaşdırılması sahəsində atılan davamlı addımlar biz müəllimləri sevindirir və qürurlandırır*

Xatırladaq ki, “Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında” Sərəncama əsasən həmin müəllimlərin aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılacaq. Sərəncam ümumilikdə 160 minə yaxın müəllimi əhatə edir və onların orta aylıq əməkhaqqının 605 manata çatmasına imkan verir. Artımın təmin edilməsi üçün dövlət büdcəsindən əlavə olaraq illik 240 milyon manat, bu il (sentyabr-dekabr ayları) üzrə isə 73 milyon manat vəsait ayrılacaq.

Prezident İlham Əliyevin “Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında” Sərəncamı isə həmin təbəqədən olan müəllimlərin və işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılmasını nəzərdə tutur.

Beləliklə, “Yeni Azərbaycan” qəzeti olaraq, sözügedən sərəncamlarla bağlı Bakı şəhərində və regionlarda fəaliyyət göstərən müəllimlərin fikirlərini öyrəndik. Qeyd edək ki, təhsil işçiləri son sərəncamları əhalinin rifahının yaxşılaşdırılması istiqamətində atılan inqilabi addımların davamı kimi qiymətləndirirlər.

Məsələn, Binəqədi rayonu 246 nömrəli məktəb-liseyin direktoru Almaz Bayramova təhsilin inkişafının dövlətin siyasətində əsas prioritetlərdən biri olduğunu bildirib: **“Müstəqilliyimizin bərpasından sonra keçən dövr ərzində Azərbaycanda təhsilin inkişafı sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilib. Təhsilin normativ-hüquqi bazasının formalaşdırılması, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanan sərəncamlar əsasında geniş tədbirlər həyata keçirilib. Ölkəmizdə son illərdə bir sıra Dövlət proqramları uğurla icra olunub, təhsilin məzmunu yenilənib, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənib. Azərbaycanda müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülür. “Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında” Sərəncamın imzalanması da bunu bir daha təsdiqləyir. Ulu Öndərin təhsilə, müəllimə qayğıkeş münasibəti dövlətimizin siyasətində önəmli yer tutur. Belə ki, dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə ixtisaslı müəllim kadrların hazırlanması, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Müəllimlərin əməyini yüksək dəyərləndirən Prezident İlham Əliyev deyib: “Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasında məhz müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur”. Dövlətimizin başçısının bu sözləri bir daha ölkəmizdə müəllimlərin nüfuzunun necə yüksək olduğunu göstərir”.**

Məktəb direktoru həmçinin elmin, təhsilin, mədəniyyətin və incəsənətin inkişafında əvəzsiz xidmətləri olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətini də xüsusi vurğulayıb.

Səbail rayonu 189-190 nömrəli məktəbin direktoru Ceyran Quliyeva isə bəhs olunan sərəncamlarla bağlı fikirlərini bölüşərək vurğulayıb ki, təhsil sahəsində görülən tədbirlər nəticə etibarilə təhsilin əhatəliliyinin və keyfiyyətinin artımına istiqamətlənib. İldən-ilə ölkəmizdə tələbə adını qazanan gənclərimizin sayı artır. **“Təhsil sahəsində aparılan islahatlar nəticəsində ümumi təhsildə tətbiq edilən yeni kurikulumlar müasir düşüncəli, geniş dünyagörüşlü gənclərin formalaşmasına yönəldilib. Şagirdlərin tədqiqat aparması, onların yeni informasiya texnologiyalarından istifadəsi üçün geniş imkanlar yaradılıb. Təhsildə şəffaflığın təmin edilməsi, təhsil müəssisələrinin rəhbərlərinin fəaliyyətinin qiymətləndirilməsi kimi tədbirlər nəticəsində əvvəllər mövcud olmuş bir çox neqativ hallar aradan qaldırılıb”,** - deyə direktor söyləyib. Onun sözlərinə görə, inkişafın müşahidə olunduğu digər bir istiqamət müəllimlərin işə qəbulu ilə bağlıdır. Artıq bir neçə ildir ki, bu proses elektron proqram təminatı ilə həyata keçirilir. Nəticə etibarilə, ölkədə davamlı olaraq aparılan məktəb tikintisi, müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi nəticəsində əməkhaqqı artımı, işə qəbulun şəffaf təşkili bu peşəyə marağı ilbəil artırır.

Yuxarıda da qeyd etdiyimiz kimi, dövlət başçısının son sərəncamları paytaxtla yanaşı, regionda fəaliyyət göstərən müəllimlər tərəfindən də sevinclə qarşılanıb. Ümumi qənaət budur ki, istər müvafiq sərəncamların imzalanması, istərsə də paytaxt və rayon mərkəzləri ilə yanaşı, ən ucqar yaşayış məntəqələrində də müasir məktəb binalarının tikilməsi, mövcud məktəblərin təmir edilməsi və ya yenidən qurulması təhsilə göstərilən diqqət və qayğının bariz göstəricisidir.

Həmçinin ölkəmizdə peşə təhsilinin inkişafı istiqamətində tədbirlər də uğurla həyata keçirilir. Ticarət və xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Fazil İsmayılov bildirib ki, peşə təhsili müəssisələrinin məzunlarının əmək bazarında rəqabət qabiliyyəti yüksək səviyyədədir. Bu müəssisələrin məzunlarının 70 faizindən çoxu işlə təmin olunur: **“Peşə təhsili rəqabətqabiliyyətli iqtisadiyyatın və inkişaf etmiş cəmiyyətin təşəkkül tapmasında böyük əhəmiyyətə malikdir. 2020-ci ilədək Azərbaycanda işəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası, peşə təhsili və təlimində nəticələrə əsaslanan güclü maliyyələşdirmə sisteminin, məqsədli peşə inkişafı proqramlarının, sektorlar üzrə spesifik proqramların yaradılması, peşə təhsili və təlimi üzrə hədəflərin əldə olunmasına təkan verəcək vasitələrin tətbiqi strateji hədəf kimi müəyyən edilib. Ölkədə “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunub. Bir sözlə, peşə təhsilinin inkişaf etdirilməsi diqqət mərkəzindədir. Bu günlərdə “Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında” Sərəncam imzalandı. Təbii ki, bu diqqət bizi sevindirir və qürurlandırır. Təhsil işçilərinin əməkhaqlarının artırılması, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar bizim üçün böyük stimul olmaqla yanaşı, həm də məsuliyyətimizi artırır. Ümumiyyətlə, vətəndaşların həyatının yaxşılaşdırılması Prezidentin həyata keçirdiyi strategiyanın əsasını təşkil edir. Bir sözlə, Azərbaycanın müasir təhsil sistemi müəyyənləşdirilmiş hədəflər çərçivəsində uğurla inkişaf etməkdədir və zəngin intellektual potensiala malik, savadlı gənclərin yetişməsinə töhfə verməkdədir”.**

Öz növbəsində, Mingəçevir şəhəri, Nizami Gəncəvi adına 8 nömrəli orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Əsli Yusifova da ölkəmizdə ildən-ilə inkişaf edən təhsil sahəsində uğurlu nailiyyətlərin əldə olunduğunu söyləyib. Qeyd edib ki, bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də inkişaf, yeniliklər müşahidə olunur: **“Müasir dünyada ölkənin uğurunu təhsil müəyyən edir. Təhsilin inkişafı, eyni zamanda, ölkənin inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər önəmli amil kimi dövlət siyasətinin mühüm strateji istiqamətlərindən biri və bəlkə də, ən başlıcasıdır. Qloballaşan dünyanın çağırışlarına uyğun olaraq, təhsil sisteminin yüksək səviyyəyə qaldırılması təhsilin modernləşdirmə, müasirləşdirmə mərhələsinə mütərəqqi layihələrlə can atan dövlətimizin başlıca hədəflərindəndir”.**

Əsli Yusifova bildirib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan təhsilə, müəllimlərə qayğı siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilir. **“Sevindirici haldır ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müəllimin əməyinə yüksək qiymət verilir, bu peşə sahiblərinin sosial rifahının yaxşılaşdırılması üçün davamlı tədbirlər həyata keçirilir. Dövlət başçısının bir neçə gün öncə imzaladığı müvafiq sərəncamlar da bunu bir daha təsdiq edir. Bir sözlə, bu gün ölkəmizdə təhsilə, müəllimə diqqət göz qabağındadır. Azərbaycanda həyata keçirilən təhsil islahatları, təhsil işçilərinin maddi rifah halının daha da yaxşılaşdırılması sahəsində atılan davamlı addımlar biz müəllimləri sevindirir və qürurlandırır”,** - deyə Əsli Yusifova vurğulayıb.

**Müşfiqə BAYRAMLI**

# Dövlət İdarəçilik Akademiyasında elmi-praktik konfrans: "Dövlət qulluğunun aktual problemləri"

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Dövlət qulluğunun aktual problemləri" mövzusunda elmi-praktik konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Dövlət Qulluqçularının Peşə Bayramı Gününə həsr edilən konfrans Dövlət İdarəçilik Akademiyası və Dövlət İmtahan Mərkəzinin (DİM) birgə təşkilatçılığı ilə reallaşıb. Konfrans "Dövlət qulluqçularının peşə bayramı gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq, Prezident Administrasiyası rəhbərinin "Dövlət qulluqçularının peşə bayramı gününün qeyd edilməsi ilə bağlı tədbirlər planı"nın təsdiq edilməsi haqqında Sərəncamı əsasında keçirilib.










Konfransı giriş sözü ilə açan Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Azərbaycanın qısa müddətdə inklüziv və davamlı inkişaf siyasətini reallaşdırmağa müvəffəq olduğunu bildirib. Vurğulayıb ki, bütün bu nailiyyətlər Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dərin düşünülmüş strategiya və tətbiq olunan orijinal innovativ idarəetmə texnologiyaları əsasında qazanılıb. Ölkənin qazandığı uğurların əsasında insan potensialının formalaşması, idarəedilməsinə elmi yanaşma əsas yer tutur.

### PREZİDENTİN VƏTƏNDAŞLARA MÜNASİBƏTİ BÜTÜN MƏMURLAR ÜÇÜN ÖRNƏKDİR

Elmi-praktik konfransda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri, Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü Süleyman İsmayılov çıxış edərək deyib ki, Prezident İlham Əliyevin "Dövlət qulluqçularının peşə bayramı gününün təsis edilməsi haqqında" 2006-cı il 25 may tarixli Sərəncamı ölkədə demokratik, hüquqi, dünyəvi dövlət qurulması prosesində dövlət qulluğunun rolunu artırmaq məqsədilə atılan mühüm addımlardan biridir. Azərbaycan Respublikası praqmatik, gələcəyin hədəflərini çox düzgün seçməyi bacaran, özünü uzaqgörən siyasətçi kimi təsdiq edən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirdiyi islahatlarla çoxlarını heyrətə salıb. Azərbaycanın müstəqillik illərində əldə etdiyi nailiyyətlərin əsas səbəbini Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin əbədiləşməsinə yönəldilmiş siyasətinin onun layiqli varisi İlham Əliyev tərəfindən böyük qətiyyətlə davam etdirilməsində, bu siyasətin mütəmadi olaraq müasir dövrün çağırışlarına uyğun surətdə yeni ideyalar və konsepsiyalarla zənginləşdirilməsində axtarmaq lazımdır. Məhz bu siyasət nəticəsində son illərdə ölkənin iqtisadi potensialı və müdafiə qüdrəti dəfələrlə artıb.

Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü Süleyman İsmayılov vurğulayıb ki, iqtisadi nailiyyətlərimiz ölkəmizin müdafiə qüdrətini getdikcə artıracaq və Qarabağa böyük qayıdışın sürətli davamı təmin ediləcək, bütün bunların nəticəsində Azərbaycan dövlətinin nüfuzu daha da möhkəmlənəcək.

Prezident Administrasiyasının şöbə müdiri dövlət qulluğuna kadr hazırlanmasında Dövlət İdarəçilik Akademiyasının fəaliyyətini xüsusi qeyd edərək deyib: **"Dövlət İdarəçilik Akademiyası respublikamızın ən nüfuzlu ali məktəblərindən biridir. Öz spesifik tədris proqramı, metodikası ilə başqa ali məktəblərdən seçilir. Burada təhsilini başa vuran hər bir şəxs dövlət qulluqçusu kimi müstəqil Azərbaycan dövlətinin idarəetmə sistemində çalışır, onun inkişafında yaxından iştirak edir və gələcəkdə də yaxından iştirak edəcək".**

Süleyman İsmayılov Dövlət Qulluğunu İdarəetmə Şuranın üzvü kimi son illərdə dövlət qulluğunun təkmilləşdirilməsi ilə bağlı fikirlərini də bölüşüb. Diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə dövlət qulluğu sahəsində yeni dövr başlanıb. Son 26 ildə yüzlərlə qanun, fərman, sərəncam imzalanıb, qərarlar qəbul olunub. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunun 2000-ci il iyulun 21-də qəbul olunduğunu xatırladan Süleyman İsmayılov həmin vaxtdan bəri bu qanundan irəli gələn çoxlu sayda normativ-hüquqi aktlar imzalandığını, eyni zamanda, bu qanuna çoxlu sayda əlavələr və dəyişikliklər olduğunu, son nəticədə mükəmməl bir sənədin ortaya çıxdığını bildirib. Diqqətə çatdırıb ki, sözügedən qanun qəbul olunandan bugünə qədər ona 180-dən çox əlavə və dəyişiklik edilib. Bütün bunlar qanunun təkmilləşməsinə yönəlib.

Süleyman İsmayılov vurğulayıb ki, dövlət quruculuğu məsələləri Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Son 5-6 il ərzində dövlət quruculuğu məsələləri ilə bağlı 450-dən çox fərman, sərəncam, qanun imzalanıb. Prezident İlham Əliyev dövlət qulluqçuları qarşısında ciddi tələblər qoyub. Prezidentin vətəndaşlara, onların müraciətlərinə olan münasibəti bütün məmurlar üçün örnəkdir.

### ÖLKƏNİN İDARƏ OLUNMASINDA VƏ İNKİŞAFINDA DÖVLƏT QULLUQÇULARININ ROLU BÖYÜKDÜR

Süleyman İsmayılov onu da diqqətə çatdırıb ki, dövlət qulluğu heç də müəyyən səlahiyyətlər əldə etmək kimi başa düşülməməlidir. Əksinə, dövlət qulluqçularının çiyinlərinə böyük bir yük düşür. Ölkənin idarə olunmasında, onun inkişafının daha da sürətlənməsində dövlət qulluqçularının böyük rolu var.

Dövlət qulluğunda çalışanlarla bağlı statistik göstəriciləri diqqətə çatdıran şöbə müdiri Süleyman İsmayılov deyib ki, 2019-cu il yanvar ayının 1-nə olan məlumata görə dövlət qulluqçularının sayı 29 min 127 nəfərdir. Aparılan son struktur islahatları nəticəsində onların sayı 0,7 faiz azalıb. Dövlət qulluqçularının 28,5 faizini qadınlar təşkil edir. Dövlət qulluqçularının orta yaş həddi 43 ildir. Bu rəqəm gənclərə zəngin təcrübə məktəbindən bəhrələnmək imkanı yaradır. 35-44 yaş arasında olan dövlət qulluqçularının sayı 26,3 faiz, 63-64 yaş arasında olan dövlət qulluqçularının sayı isə 2,9 faizdir. Bütövlükdə dövlət orqanlarında çalışan dövlət qulluqçularının sayı ölkənin məşğul əhalisinin çox cüzi bir hissəsidir - 0,6 faiz. Ona görə də dövlət qulluğunda çalışan hər bir şəxs hazırlıqlı olmalı və öhdəsinə düşən vəzifəni yüksək keyfiyyətlə icra etməlidir.

Prezident Administrasiyasının şöbə müdiri son vaxtlar ölkədə həyata keçirilən sosial islahatların əhəmiyyətini qeyd edərək, dövlətimizin başçısı İlham Əliyev tərəfindən iyunun 18-də təqdim olunmuş sosial paketdə dövlət qulluqçularının maaşlarının artırıldığını vurğulayıb, bütün bunların müvafiq sahələrdə çalışanların daha yaxşı işləməsinə stimul yaratdığını deyib.

Sonra Dövlət İmtahan Mərkəzi Direktorlar Şurası sədrinin müavini Bəhram Xəlilov dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatların uğurlu nəticələrindən bəhs edib. Bildirib ki, dövlət qulluqçularının seçimi sisteminin formalaşdırılmasında sivil, demokratik və vətəndaş cəmiyyətinin tələblərinə cavab verən prinsiplər həlledici vasitədir. Bu sahədə Dövlət İmtahan Mərkəzinin üzərinə düşən əsas vəzifələrdən biri də dövlət idarəçiliyi sistemini inkişaf etdirmək məqsədilə dövlət qulluğuna qəbulu mərkəzləşdirilmiş qaydada, müsabiqə və səmərəli əsaslarla aparmaqdan ibarətdir.

### AZƏRBAYCANDA ÇEVİK DÖVLƏT QULLUĞU SİSTEMİ FORMALAŞIB

Elmi-praktik konfransda DİA-nın rektoru, akademik Urxan Ələkbərov "Dövlət idarəçiliyində yeni texnologiyalar: Azərbaycan Respublikasının innovativ təcrübəsi beynəlxalq təşkilatların sənədlərində" mövzusunda məruzə ilə çıxış edib.

Azərbaycanda çevik dövlət qulluğu sisteminin formalaşdığını qeyd edən rektor ölkədə dövlət quruculuğu, dövlət idarəetmə sisteminin formalaşması və dövlət qulluğunun inkişafı proseslərində Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərini diqqətə çatdırıb. Dövlət idarəçiliyi üçün milli kadr potensialının formalaşdırılmasının müasir dövlət quruculuğu prosesinin tərkib hissəsi olduğunu bildirən Urxan Ələkbərov dövlət qulluğu sisteminin təkmilləşdirilməsi və inkişafı, bu sahədə hüquqi bazanın tənzimlənməsi məsələlərini Prezident İlham Əliyevin daim diqqət mərkəzində saxladığını vurğulayıb. Eyni zamanda, o, dövlət qulluğu üçün kadr potensialının gücləndirilməsinin ölkədə inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi proseslərini daha da sürətləndirəcəyini bildirib.

Məruzədə beynəlxalq təşkilatların 2018-2019-cu illərdə dərc edilən rəsmi statistik məlumatları təhlil olunub. Həmçinin Dünya İqtisadi Forumunun təsisçisi və fəxri prezidenti Klaus Şvabın hazırladığı qlobal hesabat nəzərdən keçirilib. Qeyd olunub ki, həmin hesabatda Azərbaycan dünyanın ən səmərəli sosial siyasət həyata keçirən ölkəsi kimi xarakterizə edilib. Azərbaycan bu göstərici üzrə ABŞ, Almaniya, Danimarka, Kanada, Fransa, Yaponiya kimi inkişaf etmiş ölkələri geridə qoyub.

Diqqətə çatdırılıb ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan Respublikası hazırda yüzillik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq vəziyyətindədir.

Konfrans iştirakçıları Azərbaycanda tətbiq edilən və dünya miqyasında ilk dəfə işlənilmiş sinergetik, komplimentar və kompensasion texnologiyaların mahiyyəti barədə məlumatlandırılıb. Həmin texnologiyaların işlənilməsi və həyata keçirilməsi prosesində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xüsusi rolu olduğu diqqətə çatdırılıb. Bildirilib ki, məhz dövlətimizin başçısının tətbiq etdiyi idarəçilik texnologiyaları sayəsində Davos İqtisadi Forumunun 2018-ci ilin yanvarında dərc olunan hesabatında inklüziv inkişaf indeksinə görə Azərbaycan dünyada üçüncü yerdə qərarlaşaraq iqtisadi imkanları daha yüksək olan ölkələrin çoxunu geridə qoyub. Bu və digər təqdirəlayiq nəticələr ölkənin səmərəli idarə olunmasından və iqtisadi imkanlardan maksimum istifadə edilməsindən xəbər verir.

Sonra DİA-nın rəhbər dövlət idarəçiliyi kadrlarının ixtisasının artırılması institutunun direktoru, professor Gülnarə Qurbanova "Dövlət qulluqçularının təhsilində davamlı inklüziv inkişaf naminə innovativ metodlar", Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Dövlət qulluğu məsələləri şöbəsinin müdiri Vüqar Əsgərov "Azərbaycanda dövlət qulluğuna qəbul: cari vəziyyət, hədəflər və çağırışlar", Mərkəzin İctimaiyyətlə əlaqələr və kargüzarlıq şöbəsinin mətbuatla iş və elektron kommunikasiya sektorunun müdiri Xanlar Xanlarzadə "Dövlət qulluğu ilə bağlı elektron xidmətlər" mövzularında məruzələrlə çıxış ediblər. Məruzələrdə dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar nəticəsində əldə olunan uğurlardan bəhs edilib.

Daha sonra DİA-da rəhbər dövlət idarəçiliyi sahəsində ixtisaslaşaraq məzun olan dövlət qulluqçularına magistr dərəcəli diplomlar təqdim edilib.

Konfransda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabinetinin, Milli Məclisin, Konstitusiya Məhkəməsinin, müxtəlif nazirliklərin, Heydər Əliyev Mərkəzinin, Ombudsman Aparatının, Mərkəzi Seçki Komissiyasının, Baş Prokurorluğun, dövlət komitələri və xidmətlərinin, Bakı şəhəri, Naxçıvan Muxtar Respublikası və rayon icra hakimiyyətlərinin nümayəndələri iştirak ediblər.

# Nəsiminin həyatı və yaradıcılığı "Ənəlhəqq" tamaşasında







İyunun 20-də Yeni Azərbaycan Partiyası (YAP), Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinə həsr olunan tədbir keçirilib.

Tədbir Yeni Azərbaycan Partiyası ilə Mədəniyyət Nazirliyinin "Azərbaycanın dövlətçilik ənənələrinin yaşadılması məqsədilə vətənpərvərlik və mədəni dəyərlərə hörmət hisslərinin gücləndirilməsinə dair 2019-2020-ci illər üzrə birgə Fəaliyyət Planı" və "Nəsimi ili" çərçivəsində təşkil edilib.

Tədbiri Teatr Xadimləri İttifaqının sədr müavini, Xalq artisti Hacı İsmayılov açaraq Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini yaratmış Nəsimi yaradıcılığından söhbət açıb.

Tədbirdə Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri, professor Şəmsəddin Hacıyev, mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev çıxış edərək Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsini mədəniyyətə, şeirə, sənətə göstərilən dövlət qayğısı kimi qiymətləndiriblər.

İmadəddin Nəsiminin Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından biri olduğunu söyləyən natiqlər 2017-ci ilin may ayında Parisdə UNESCO-nun baş qərargahında şairin vəfatının 600 illiyi, 2018-ci ildə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Bakıda və Şamaxı şəhərlərində, habelə Moskvada Nəsimi, şeir, incəsənət, mənəviyyat Festivalının keçirilməsi və Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən bu ilin "Nəsimi ili" elan edilməsini şairin yaradıcılığına göstərilən ehtiramın nəticəsi kimi dəyərləndiriblər.

Nəsimi irsinin təsir dairəsindən söz açan Milli Məclisin deputatı, akademik Rafael Hüseynov tarixə nəzər salaraq sovet dövründə Nəsiminin 600 illik yubileyi ərəfəsində görülən işlərdən danışıb. Azərbaycan ədəbiyyatşünaslarının tədqiqatlarını qeyd edən akademik həmin dövrdə Nəsimi yaradıcılığı ilə bağlı ölkəmizin mədəni mühitində bir çox işlərin görüldüyünü, şairin sözlərinə mahnılar bəstələndiyini xatırladıb. Vurğulayıb ki, Nəsimini sadə Azərbaycan insanına "Nəsimi" filmi tanıdıb.

Tədbirdə Xalq artisti Rasim Balayev ona böyük populyarlıq qazandıran "Nəsimi" filmindəki məşhur rolundan danışıb, böyük mütəfəkkir barədə öz fikirlərini bölüşüb.

Daha sonra YAP Səbail rayon təşkilatı Könüllülər Birliyinin incəsənət qrupu tərəfindən nəzmlə hazırlanan və Azərbaycan xalqının ədəbi və fəlsəfi fikir tarixində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin həyatı, yaradıcılığı və ictimai-siyasi fəaliyyətinə həsr olunan "Ənəlhəqq" teatr tamaşası nümayiş olunub. Nəsimi fəlsəfəsi, onun ideologiyasının dünyəviliyi, o vaxtkı qəddar rejimə, tökülən qanlara qarşı Nəsiminin üsyankarlığının əsas götürüldüyü, mürid və mürşid, despot şah və həqiqət tələb edən şair, xeyir və şər, aşiq və məşuq münasibətlərinin ifadə olunduğu "Ənəlhəqq" tamaşasının layihə rəhbəri Rəşad İmanov, ssenari müəllifləri Rəhman Mirzəlizadə və Fehruz Rzayev, quruluşçu rejissoru Cavidan Kəsəmənlidir.

# Asiyada təhlükəsizlik və əməkdaşlıq platforması: Azərbaycan üçün geosiyasi əhəmiyyəti




Tacikistanın paytaxtı Düşənbə şəhərində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin beşinci Zirvə toplantısı keçirilib.

Toplantıda regionun daha təhlükəsiz və daha yüksək inkişaf etmiş hala gəlməsinin yolları müzakirə edilib. Bunun fonunda hazırda mövcud olan müxtəlif xarakterli təhlükələrə, risklərə, təhdidlərə nəzər salınıb. Zirvə toplantısında iştirak edən dövlət və hökumət başçıları fikirlərini bəyan ediblər. Azərbaycanı Baş Nazir Novruz Məmmədov təmsil edib. Novruz Məmmədov çıxışında Asiya üçün aktual olan bir sıra məqamlara toxunub, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin həlli zərurətini bir daha diqqətə çatdırıb. Bütövlükdə toplantıda maraqlı analizlər aparılıb, proqnostik fikirlər irəli sürülüb. Onların vahid geosiyasi bucaq altında geniş təhlilinə ehtiyac duyuruq.

## AKTUAL MƏSƏLƏLƏR: QARŞILIQLI FƏALİYYƏT VƏ ETİMADIN MÜXTƏLİF ASPEKTLƏRİ

Dünyanın geosiyasi ağırlıq mərkəzinin Yaxın Şərqdən Mərkəzi və Cənub-Şərqi Asiya bölgəsinə tərəf dəyişdiyi bir mərhələdə Asiya qitəsində təhlükəsizlik, əməkdaşlıq və qarşılıqlı etimad mexanizmlərinin səmərəli fəaliyyəti aktual məsələ kimi qarşıda dayanır. Qazaxıstanın keçmiş Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə 1992-ci ildə yaradılmış Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) bu istiqamətdə konkret işlər gördüyü etiraf edilir. Həmin səbəbdən forumun növbəti Zirvə toplantısına da maraq az deyildi. Ekspertlər üçün hazırkı mərhələdə qlobal miqyasda müşahidə edilən proseslərin prizmasından Asiya qitəsində ümumi mənzərənin analizi və qiymətləndirilməsi də aktual görünürdü.

Tədbirdə Türkiyə, Rusiya, Çin, İran, Qazaxıstan, Özbəkistan, Qırğızıstan dövlət başçılarının təmsil olunması da maraq doğururdu. Gözlənildiyi kimi, Zirvə toplantısında bütövlükdə Asiya qitəsi üçün aktual olan məsələlərlə bağlı fikirlər səsləndirilib. "Daha çiçəklənən və təhlükəsiz region" mövzusunda keçirilən tədbirdə dünyanın 27 ölkəsinin dövlət və hökumət başçıları, yüksək vəzifəli nümayəndələri, həmçinin beynəlxalq və regional təşkilatların rəhbərləri iştirak ediblər.

Tacikistan Prezidenti Emoməli Rəhmon terrorizm və ekstremizmin regionda təhlükəsizliyə əsas təhdid olduğundan bəhs edib. O deyib ki, bu təhdidlər region ölkələri arasında əməkdaşlığın daha da gücləndirilməsini zəruri edir. Bununla yanaşı, regionda ümumi maraqların təmin edilməsi naminə nəqliyyat infrastrukturu layihələrinin genişləndirilməsinin böyük önəm daşıdığı qeyd edilib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Asiya üçün önəmi olan geosiyasi problemləri vurğulayıb. O cümlədən ticarət müharibələrinin yarada biləcəyi təhdidlərə toxunub. Ayrıca, Türkiyənin qarşısına çıxarılan süni problemlərin aradan qaldırılması imkanlarını xatırladıb. Asiyada qarşılıqlı etimad və əməkdaşlığın qlobal geosiyasi proseslərə də müsbət təsir edəcəyi vurğulanıb.

Azərbaycanın Baş Naziri Novruz Məmmədov Asiya qitəsi üçün aktual problemlərdən bəhs edib. Həmin kontekstdə Novruz Məmmədov vurğulayıb: **"Şübhəsizdir ki, silahlı münaqişələr, terrorizm, irqçilik, radikalizm, dözümsüzlük və kiber təhlükələr beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi risklər doğurur. Beynəlxalq və regional təhlükəsizlik bir-biri ilə sıx bağlıdır. Dünyanın bir bölgəsində sülh və sabitliyin pozulması digər regionlarda da təhlükəsizlik üçün təhdidlər yaradır".** Bu təhdidlərin fonunda AQEM-in Asiya qitəsində sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi prosesində üzərinə daha böyük məsuliyyət düşdüyünü Baş Nazir xüsusi qeyd edib. İlk növbədə, bu təşkilat real dialoq və əməkdaşlıq platforması kimi aktuallıq kəsb edir.

Burada Ermənistanın Azərbaycana qarşı yeritdiyi təcavüzkar siyasətin nəzərə alınması son dərəcə vacibdir. BMT və digər beynəlxalq təşkilatlarla yanaşı, **"Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirlərinə dair Müşavirə çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini dəstəkləyən bəyanat və qərarlar qəbul olunub. Münaqişə beynəlxalq hüququn normalarına, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və Helsinki Yekun Aktına əsasən Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməlidir".**

## MÜNAQİŞƏLƏRİN HƏLLİ: SABİTLİYƏ APARAN YOL

Azərbaycanın Baş Naziri tamamilə haqlıdır. Çünki Ermənistan-Azərbaycan münaqişəsi həll olunmadan nə regional, nə də qlobal təhlükəsizlikdən danışmaq mümkün deyildir. Eyni zamanda, Asiyada heç bir qarşılıqlı etimada və əməkdaşlığa nail olmaq imkanı yoxdur. Bu səbəbdən həmin münaqişənin həllində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirlərinə dair Müşavirə də maraqlı olmalıdır.

Novruz Məmmədov nitqində Azərbaycanın Asiyada və Avropada təhlükəsizliyin təmininə və əməkdaşlığın inkişafına verdiyi töhfələr üzərində xüsusi dayanıb. Həmin bağlılıqda Baş Nazir ifadə edib: **"Biz nəqliyyat infrastrukturuna - dəniz limanları, dəmir yolları, hava limanları və magistral yollara böyük sərmayə yatırmaqla əlverişli coğrafi mövqeyimizi real nəqliyyat imkanlarına çevirmişik. Bu gün Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi vacib tranzit ölkəyə çevrilib. 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiya və Avropa arasında vacib logistik bağlantıdır. Bütün bunlar həm də beynəlxalq əməkdaşlıq formatını yaradır, xalqları və ölkələri bir-birinə bağlayır, sülh və sabitliyə xidmət edir".**

Şübhə yoxdur ki, Azərbaycanın hərtərəfli və dinamik inkişaf yolu ilə irəliləyən müasir dövlət olması həm Cənubi Qafqaz, həm də Asiya qitəsi üçün yeni imkanlar yaradır. Onun maraqlarının qorunması sülh, sabitlik, təhlükəsizlik və əməkdaşlığın qorunması deməkdir.

Digər çıxışçıların məntiqi yanaşması Azərbaycanın Baş Nazirinin yanaşması ilə tam üst-üstə düşüb. Məsələn, Çin Xalq Respublikasının Sədri Si Cinpin Asiya regionunda sülhün və təhlükəsizliyin təmin edilməsinin vacibliyini xüsusi vurğulayıb. Bunun üçün bütün sahələrdə əməkdaşlıq inkişaf etdirilməlidir. Tolerantlığın qorunması da son dərəcə əhəmiyyətli məsələdir. Bununla yanaşı, Si Cinpin də Asiyada əməkdaşlığın inkişafına maneə yaradan təhdidlərin mövcudluğu üzərində dayanıb. Bu təhdidlər haradan olursa-olsun, onların qarşısının alınması zəruriliyi vurğulanıb.

Rusiya Prezidenti Vladimir Putin də terrorçuluğa qarşı mübarizənin əhəmiyyətini qeyd edib. Ayrıca, indi ekstremist qrupların Əfqanıstanda məskunlaşmağa başladığını ifadə edib. Bu da Asiya üçün yeni təhlükələr yaradır. Suriya məsələsinin də həmin kontekstdə kifayət qədər aktual təsir bağışladığını deyən Rusiyanın dövlət başçısı, bu kimi hallara qarşı birgə fəaliyyətin vacibliyini vurğulayıb. Təbii ki, bu fikirlərin fonunda Cənubi Qafqazda erməni terroruna qarşı mübarizənin yeni səviyyəyə yüksəldilməsi də aktual vəzifə kimi görünür.

Bu fikirlərin davamı olaraq İran Prezidenti Həsən Ruhaninin Yaxın Şərqin dünyanın ən kriminal regionuna çevrilməsini vurğulaması məntiqidir. O cümlədən Suriya böhranının aradan qaldırılması olduqca mühüm məsələdir. Bununla yanaşı, İran ilə Qərb dövlətləri arasında imzalanmış nüvə sazişi ətrafında gərginliyin regiona ciddi təhlükələr yaratdığını anlamaq gərəkdir. ABŞ-ın nüvə sazişindən çıxması İslam Respublikasını həmin sahədə fəaliyyətini davam etdirməyə məcbur edə bilər. Deməli, həmin məsələ də Asiya üçün aktual olan problemlərdən biri olaraq qalmaqdadır.

Beləliklə, dünya əhalisinin üçdə ikisinin, təxminən 4 milyarda yaxın insanın yaşadığı Asiya qitəsində sülh, barış, əməkdaşlıq, qarşılıqlı etimad və təhlükəsizlik məsələləri birbaşa və ya dolayısı ilə qlobal geosiyasi dinamika ilə sıx bağlıdır. Bu səbəbdən qitədə həmin istiqamətlərdə real, səmimi və təsirli addımlar atılmalıdır. Bundan sonra da terrorun, ekstremizmin Asiyadakı dağıdıcı rolunu dəstəkləyən dairələr sakit dayanmayacaqlar. Lakin AQEM-ə daxil olan ölkələrin birgə səyi ilə onları neytrallaşdırmaq mümkündür. Çünki bu təşkilata Türkiyə, Çin, Rusiya, İran, Qazaxıstan kimi böyük dövlətlər üzvdürlər. Onlarla yanaşı, regional lider olan Azərbaycan da kifayət qədər fəal dövlətdir. Bütün səyləri birləşdirib, kənardan olan destruktiv təsirlərin qarşısını almaq olar.

Ancaq həmin məqsədə çatmaq üçün terrorizmə, ekstremizmə, narkoticarətə və s. neqativ hallara qarşı birmənalı və hərtərəfli kriteriyalarla yanaşmaq lazımdır. Azərbaycan həmişə məhz bu mövqedən çıxış edib.

**Newtimes.az**

# YAP Laçın rayon təşkilatı Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir keçirib



Dünən Ağcabədi rayonunun Taxta Körpü qəsəbəsində Yeni Azərbaycan Partiyasının (YAP) Laçın rayon təşkilatının inzibati binasında böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Rayon ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 yanvar 2019-cu il tarixli Sərəncamının tarixi əhəmiyyətindən danışaraq bildirib ki, Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş böyük mütəfəkkir-şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir.

İ.İlyasov daha sonra bildirib ki, YAP Laçın rayon təşkilatı rayonun təhsil ocaqları və mədəniyyət müəssisələri ilə birlikdə ümumtəhsil məktəblərinin X və XI sinif şagirdləri arasında "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş bədii qiraət müsabiqəsi" keçirib. Tədbirdə münsiflər heyəti tərəfindən qiymətləndirilməsi aparılan və ilk üç yerə layiq görülən bədii qiraət müsabiqəsinin qaliblərinə YAP Laçın rayon təşkilatının fəxri fərmanları təqdim olunub.

# Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği



***Əsərlərində ümumbəşəri fikirləri yüksək poetik şəkildə ifadə edən mütəfəkkir-şair İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri kimi zamanında bədii söz sənətinin dəyərli incilərini ortaya qoyub. Nəsiminin ədəbiyyatımızın inkişafında misilsiz xidmətlərinə Azərbaycan dilində fəlsəfi qəzəlin banisi olmasını, yaratdığı şah əsərlərdə işlətdiyi söz, ifadə və anlayışlarla dilimizi zənginləşdirməsini aid etmək olar.***

Təsadüfi deyil ki, ədəbiyyatımıza və xalqımızın mənəvi sərvəti olan ana dilimizə böyük diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyev dilimiz və elmimizin inkişafında xüsusi rolu olan ədəbiyyatımızın görkəmli nümayəndəsi İmadəddin Nəsiminin xidmətlərini yüksək qiymətləndirib. Dövlət başçısı şairin 650 illik yubileyi şərəfinə "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli və "Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında" 11 yanvar 2019-cu il tarixli sərəncamlar imzalayıb. Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq imzalanan həmin sərəncamlara uyğun olaraq Nəsiminin yubileyi ölkəmizdə və onun hüdudlarından kənarda yüksək səviyyədə qeyd olunur.

## ÜMUMMİLLİ LİDER TƏRƏFİNDƏN ƏSASI QOYULAN ƏNƏNƏ DAVAM ETDİRİLİR

Bu məqamda qeyd etmək lazımdır ki, 2019-cu ilin Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilməsi Prezidentimizin, Azərbaycan dövlətinin ədəbiyyatımıza və mədəniyyətimizə böyük dəyər verməsinin və xüsusi diqqət göstərməsinin bariz nümunəsidir. Buna görə də "Nəsimi ili" çərçivəsində ədəbiyyatşünas və dilçilərlə yanaşı, Azərbaycan mətbuatının, ümumiyyətlə, KİV-in qarşısında Nəsiminin ədəbi irsini, fəlsəfəsini, onun milli və bəşəri xüsusiyyətləri seçilən ideyalarını, o cümlədən bütün bu məziyyətlərin əks olunduğu əsərlərini, Azərbaycan ədəbiyyatı tarixindəki yerini və əhəmiyyətini, dilimizin inkişafında, zənginləşməsində xidmətlərini ictimaiyyətə çatdırmaq kimi böyük vəzifələr durur.

Digər tərəfdən, Prezident İlham Əliyev tərəfindən 2019-cu ilin Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilməsinin əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan ənənənin davamıdır. Belə ki, Ulu Öndər hələ Sovet İttifaqı dövründə Azərbaycanda hakimiyyətdə olduğu illərdə görkəmli şairimizin yaradıcılığına xüsusi diqqət göstərib. Ümummilli Lider 1969-cu ilin iyulunda Azərbaycanda birinci dəfə hakimiyyətə gələndə Nəsiminin yaradıcılığını dilimizdə və ədəbiyyatda oynadığı rolu nəzərə alaraq onun adını və xidmətlərini əbədiləşdirmək üçün mühüm təşəbbüslə çıxış edib, Onun ciddi təkidi sayəsində şairin 600 illik yubileyinin təntənəli şəkildə qeyd olunması 1973-cü ildə baş tutub. Azərbaycan ədəbi dilinin zənginləşməsində, onun tarixində böyük xidmətlərinə görə Nəsiminin adı 1973-cü ildə Elmlər Akademiyasının Dilçilik İnstitutuna verilib, Nəsimi haqqında bədii film çəkilib. Həmin xidmətlərin əbədiləşdirilməsinin davamı olaraq 1979-cu ildə Bakının mərkəzində şairin heykəli ucaldılıb.

Bundan əlavə, Ulu Öndər 1973-cü ildə Nəsiminin 600 illik yubileyinin UNESCO-nun tədbirlər planına daxil edilməsinə nail olub. Həmin tədbirlər çərçivəsində böyük söz ustadının əsərləri xarici dillərə tərcümə edilərək nəşr olunub. Bu kontekstdə Ümummilli Liderin həmin təşəbbüsünü o dövrdə müxtəlif ölkələrdə və sovet respublikalarında Nəsimini öz adına çıxmaq istəyənlərə cavab kimi yüksək qiymətləndirmək olar. Məhz bu baxımdan, Ulu Öndərin Nəsiminin Azərbaycan şairi, ədəbiyyatımızın görkəmli nümayəndəsi olduğunu UNESCO xətti ilə bütün dünyaya tanıtması doğrudan da uzaqgörən və müdrik siyasətinin nəticəsi idi.

## NƏSİMİ AZƏRBAYCAN ƏDƏBİYYATINDA FƏLSƏFİ QƏZƏLİN BANİSİDİR

Qeyd edək ki, Nəsimi yaratdığı əsərlərdə işlətdiyi söz, ifadə və anlayışlarla Azərbaycan dilini zənginləşdirib. Nəsimi yaradıcılığında dilimizin saflığı, ahəngdarlığı və musiqiyə uyğunluğu qabarıq şəkildə özünü göstərir. Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylunun sözlərinə görə, Nəsiminin ədəbiyyatımızın inkişafında ən böyük xidmətlərindən biri Azərbaycan dilində fəlsəfi qəzəlin banisi olmasıdır: **"Nəsimi Azərbaycan ədəbiyyatında fəlsəfi şeirin, fəlsəfi qəzəlin əsasını qoyub. Ona qədər Azərbaycan dilində fəlsəfi qəzəl yazan olmayıb. Nəsimidən qabaq İzzəddin Həsənoğlu ana dilimizdə qəzəl yazıb, onun da bizə cəmi 3 qəzəli çatıb. Amma o qəzəllər fəlsəfi olmayıb".**

Nəsimi yaradıcılığına xas olan digər xüsusiyyət odur ki, Nəsimi bütün əsərlərini əruz vəznində yazıb. M.Nağısoylu deyir ki, Azərbaycan şeirinin əsas vəzni heca vəznidir: **"Əruz vəzni bizə ərəb dilindən gəlsə də, dilimizdəki əruz vəzninin təkmilləşdirilməsində və formalaşmasında Nəsimi mühüm rol oynayıb. Məsələn, Nəsimidən qabaq Qazi Bürhanəddin, İzəddin Həsənoğlu kimi şairlər qəzəl və ya tuyuq yazıblar. Amma Nəsimi müxəmməs də, tərkibbənd də, tuyuq da yazıb. Yəni bununla ədəbiyyatımızı daha da təkmilləşdirib".**

Akademikin sözlərinə görə, Nəsiminin ən böyük xidmətlərindən biri Azərbaycan milli ədəbi dilini zənginləşdirməsi və saflaşdırması olub: "Onun dilini bugünkü oxucu da rahat başa düşür:

*Düşdü yenə dəli könül*
*gözlərinin xəyalinə,*
*Kim nə bilir bu könlümün*
*fikri nədir, xəyali nə?*

Bu cinas-qafiyədir. Bu şeir 600 il bundan qabaq yazılıb, amma anlaşılmayan heç nə yoxdur. Görün nə qədər saf, təmiz və axıcı şəkildə yaradıb. Həm də şairin elə qəzəlləri var ki, orada yalnız ana dilimizə xas olan sözlər işlədib:

*Al ilə ala gözlərin*
*aldadı aldı könlümü,*
*Alini gör nə al edər,*
*kimsə erişməz alinə.*

Burada, "a" saiti və "l" samiti bir növ assonans yaradır. Digər tərəfdən, bu beytdə heç bir əcnəbi söz yoxdur. Həmçinin burada "al" kəlməsi iki mənada - birinci sətirdə "al" sözü "hiylə", ikinci sətirdə isə "qırmızı" mənasında işlədilir. Daha bir nümunə deyim:

*Dilbər aydır,*
*ey Nəsimi, sabir ol, qılma fəqan,*
*Şimdi fəqan etməsən,*
*danla fəqanı neylərəm.*

Burada artıq ana dilində olan əski iki kəlmə - "aydır" və "danla" işlədilib".

Ümumiyyətlə, mütəxəssislərin qənaətinə görə, Nəsiminin dili melodikdir, zəngindir, onun qəzəlləri musiqi üzərində köklənib. Nəsiminin şeirləri o qədər oynaq və ahəngdardır ki, onu ifa etmək üçün ayrıca musiqiyə ehtiyac yoxdur.

Qeyd olunan faktlardan yola çıxaraq, birmənalı şəkildə demək olar ki, ədəbiyyatımızın ən böyük nümayəndələrindən olan Nəsimi ana dilimizi yüksək zirvəyə qaldırıb. Çünki milləti dünyada tanıdan onun dilidir. Dil də millətin varlığı və ən böyük milli-mənəvi sərvətidir. Bu sərvətimizin inkişafında Nəsiminin xidmətləri az deyil. Nəsiminin yaşadığı dövrdə savadlı adam üç dili mükəmməl bilirdi: ərəb, fars, türk. Onun yaradıcılığına qədər elmi əsərləri ərəb, şeirləri fars dilində yazırdılar. Nəsimi sübut etdi ki, Azərbaycan dili də şeir dilidir və ana dilimiz o dövrdə geniş yayılmış ərəb və fars dilləri ilə bir səviyyədə dayanan bir dildir.

## NƏSİMİNİN YARADICILIĞINDA BƏŞƏRİ İDEYALARIN TƏBLİĞİ ƏSAS YER TUTUR

Məlum olduğu kimi, 1369-cu ildə Şamaxıda anadan olan İmadəddin Nəsimi mükəmməl təhsil alıb, üç səmavi dinin kitablarını - "İncil"i, "Tövrat"ı və "Quran-i Kərim"i də dərindən mənimsəyib. Qədim dini və fəlsəfi təlimləri bilib və onun əsərlərinin hamısında bu dinlərə və təlimlərə istinadlar var. Məhz bu səbəblərdən bədii söz sənətinin ən dəyərli incilərini ortaya qoyan, əsərlərində ümumbəşəri fikirləri yüksək poetik şəkildə ifadə edən mütəfəkkir-şair Azərbaycan ədəbiyyatının nadir simalarından biridir.

Azərbaycan Respublikası Prezidentinin 15 noyabr 2018-ci il tarixli Sərəncamında deyilir: **"Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir".**

Eyni zamanda Nəsimi insana böyük dəyər verir, insanları qarşıda gözləyən təhlükələrdən qorumaq istəyirdi. Təəssüf ki, Sovet ideologiyası qəliblərə sığışdırmaq məqsədilə o dövrdə Nəsimini az qala ateist kimi təqdim edirdi. Amma fakt odur ki, Nəsiminin bütün əsərlərində "Qurani-Kərim"ə və hədislərə istinadlar var. Onun birinci qaynağı da müqəddəs kitab idi. Hətta şair öz fikirlərini "Qurani-Kərim" əsasında yayırdı. M.Nağısoylu deyir ki, Nəsimi "ən-əl həqq" deyəndə əslində özünün heç nə olduğunu, onun bədənindəkinin Allahın təcəllisi olduğunu göstərirdi: **"Hurifilər də insanın sonunu Allaha qovuşmaqda görür, insanın özündə isə Allahın əlamətlərini görürdülər. Məsələn, burunu "əlif" hərfinə, gözü "əyn" hərfinə oxşadırdılar. "Hürufi" hərf sözünün cəmidir. Ona görə də onlara "hürufilər" deyirdilər. Hürufilər hər şeydə hərf axtarırdılar".**

Məlum olduğu kimi, ərəb əlifbasında 28 hərf var. "Quran-i Kərim" də hərflərlə, yəni sözlər vasitəsilə nazil olub. Akademikin sözlərinə görə, məhz o 28 hərfin hər birinin əbcəd hesabı ilə rəmzi, simvolik əlamətləri var: **"Nəsimi, ümumiyyətlə, hürifilər həmin əlamətlərə əsasən yozum aparırdılar. Nəsimi "vəhdəti-vücud" prosesi ilə insanı ucaltmaq istəyir, hətta insanı bir növ qoruyurdu. Çünki Allah-Təalanın yaratdığı ən uca, ən kamil varlıq da insandır. Hürufilərə görə, yalnız kamil insan Allahı dərk edə bilərdi".**

Bu baxımdan İmadəddin Nəsiminin dərin humanizm ifadə edən zəngin yaradıcılığında hürufilik təlimi, onun kamil insan konsepsiyası mühüm yer tuturdu. Alimlərimizin qənaətinə görə, məhz buna görə də Nəsimi bu dünyanı fani, müvəqqəti hesab edir, kamil insanın Allahı dərk edərək ona qovuşmağına inanırdı. Professor Hüseyn Həşimlinin fikrincə, insanın haqqa çatması vasitəsi kimi ilahi eşq yolunu simvollaşdıran sufilərdən fərqli olaraq hürufilər zəkaya, elmə daha çox üstünlük verir, kamil insan idrakının qüdrətini önə çəkirdilər: **"Hürufilər bu fikirdə idilər ki, bəşəriyyətin səadəti, xoşbəxt cəmiyyət quruculuğu insanın mənəvi kamilliyi ilə bilavasitə əlaqədardır. Yaranmışların ən alisi, şərəflisi sayılan insan özünü dərk etməli, çirkin hisslərdən, nəfsdən, bəd duyğulardan uzaq olmalı, haqq yolunu seçməli, yüksək mənəvi dəyərlərə yiyələnməli, müdrikliyə çatmalıdır".**

Sadalanan fikirlərin yekunu olaraq, Azərbaycan ədəbiyyatı tarixində görkəmli yerə malik olan şairimizin şərəfinə Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsini Nəsimi irsini, ideyalarını elmi şəkildə, o dövrün ideologiyasına, fəlsəfəsinə uyğun olaraq əsaslandırmaq, dərin fəlsəfi məna tutumunu araşdırmaq və olduğu kimi bütün dünyaya, Azərbaycan ictimaiyyətinə, o cümlədən elmi ictimaiyyətə çatdırmaq üçün fürsət kimi qiymətləndirmək mümkündür.

**Qaşqay ZİYƏDDİNOĞLU**

**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim etmək üçün**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Regionlarda yeni yaşayış massivlərinin qazlaşdırılması işləri uğurla icra olunur

## *Aparılan məqsədyönlü işlər nəticəsində ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 2 milyon 226 min 675-ə çatıb*



Azərbaycanda son illərdə yaşayış məntəqələrində istehlakçıların qaz təchizatının yaxşılaşdırılması, bölgələrin qazlaşdırılması, qaz kəmərlərinin, avadanlıqların yenidən qurulması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir və qaz təsərrüfatı infrastrukturunun genişləndirilməsi tədbirləri uğurla davam etdirilir. Dövlət başçısının göstərişinə uyğun olaraq, respublika üzrə qazlaşdırma səviyyəsi bu il yanvarın 1-nə 95,7 faizə çatdırılıb. Bu isə əhalinin böyük hissəsinin təbii qaza olan tələbatının ödənilməsi deməkdir. Xatırladaq ki, Azərbaycan qazlaşdırma işlərinin görülməsi səviyyəsinə görə nadir ölkələrdəndir. Buna baxmayaraq, gündəlikdə duran prioritet məsələ məhz qaz verilməyən yaşayış məntəqələrinin qazlaşdırılmasıdır. Bu proses cari ildə də davam etdirilir. Ölkə başçısının qazlaşdırmaya göstərdiyi böyük diqqət və qayğının nəticəsində 2009-2019-cu illər ərzində 2349 qəsəbə və kənddə qazlaşdırma işləri tam başa çatdırılıb.

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində də Prezident İlham Əliyev əhalinin qazla təminatının Azərbaycanda ən yüksək səviyyədə olduğunu vurğulayıb: **"İnfrastruktur layihələri ilə bağlı, görün, nə qədər böyük işlər görülüb. Bu gün qazlaşdırmanın səviyyəsinə görə Azərbaycan dünyada lider ölkələrdəndir, qazlaşdırmanın səviyyəsi 95 faizə çatıb. Biz ən ucqar dağ kəndlərinə qaz xətləri çəkdik. Halbuki bu, iqtisadi cəhətdən səmərəsizdir. Biz Azərbaycanda qazın mövcud olan aşağı tarifi ilə o xərcləri heç vaxt qarşılaya bilmərik. Onu da bildirməliyəm ki, Azərbaycanda təbii qazın tarifləri dünya miqyasında ən aşağı səviyyələrdən biridir, bəzi qonşu ölkələrdən iki-üç dəfə aşağıdır. Qazın olmaması insanları narahat edən məsələ idi. İndi bizim təqribən 3-4 faiz yaşayış məntəqələrimiz var ki, orada qaz yoxdur. Biz o işləri də görəcəyik".**

Onu da vurğulamaq yerinə düşər ki, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədilə "Azəriqaz" İstehsalat Birliyi tərəfindən təxirəsalınmaz işlər həyata keçirilir. Regionlarda əhali istehlakçılarının təbii qaza olan tələbatının tam ödənilməsi, mənzillərdə istismar müddəti başa çatmış məişət qaz sayğaclarının yenisi ilə əvəz olunması işləri və istismara yararsız vəziyyətdə olan qaz avadanlıqlarının və boru xətlərinin yeniləri ilə əvəz edilməsi işləri uğurla icra olunur. Digər tərəfdən, qaz verilməyən bir çox yaşayış məntəqəsinin qazla təminatı ilə yanaşı, son illər regionlarda yaşayış məntəqələrinin genişlənən hissələrindəki yeni massivlərinin qazlaşdırılması üzrə işlər intensiv olaraq davam etdirilir.

"Azəriqaz" İstehsalat Birliyindən verilən məlumata görə, cari ilin qazlaşdırma proqramında qazlaşdırılmış yaşayış məntəqələrinin genişlənən hissələrindəki yeni massivlərin qazlaşdırılması əsas yer tutur ki, aparılan işlər çərçivəsində hazırda Tovuzun Yuxarı Öysüzlü kəndində yeni massivin qazlaşdırılması uğurla icra edilir. Tərtib edilmiş layihəyə uyğun olaraq, yeni massivin "mavi yanacaq"la təmin olunması məqsədilə ümumi uzunluğu 13 min 200 metr müxtəlif diametrli daşıyıcı və paylayıcı qaz xətlərinin çəkilməsi, 104 evdə sayğac, eləcə də fərdi tənzimləyici quraşdırılması nəzərdə tutulur.

Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında "birpilləli" tənzimləmə sistemi tətbiq edilir ki, bu da hər bir abonentin fərdi qaztənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır. Artıq işlərin 80 faizi yerinə yetirilib, tezliklə ərazinin qazlaşdırılması tam yekunlaşacaq.

Qeyd edək ki, dövlət başçısının müvafiq sərəncamları ilə qəbul olunan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq respublikanın bütün yaşayış məntəqələrində olduğu kimi, Şəki şəhəri də inkişaf etməkdədir. Burada yaradılan şərait nəticəsində mənzillərin sayı durmadan artmaqda davam edir və yeni yaşayış massivləri salınır. Yeni massivlərin qazlaşdırılması işləri çərçivəsində hazırda Şəki şəhəri 98-ci kvartal adlanan yeni massivin qazlaşdırılması uğurla icra edilir.

Tərtib edilmiş layihəyə uyğun olaraq, yeni massivin mavi yanacaqla təmin edilməsi məqsədilə ümumi uzunluğu 9 min metr müxtəlif diametrli daşıyıcı və paylayıcı qaz xətlərinin çəkilməsi və 128 evdə sayğac, eləcə də fərdi tənzimləyici quraşdırılması nəzərdə tutulur. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında birpilləli tənzimləmə sistemi tətbiq edilir ki, bu da hər bir abonentin fərdi qaztənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır. Artıq görüləcək işlərin 70 faizi yerinə yetirilib, tezliklə ərazinin qazlaşdırılması tam yekunlaşacaq. Qeyd olunan yaşayış məntəqələrinə təbii qazın çəkilişi əhalinin sosial rifahının yaxşılaşdırılmasına və ekologiyanın qorunmasına xidmət edəcək.

Ötən illərdə olduğu kimi, bu il də rayonlarla yanaşı, Sumqayıt kimi böyük şəhərlərin genişlənən hissələrindəki yeni massivlərin qazlaşdırılması işləri icra edilir. Hazırda Sumqayıt şəhərinin Sumqayıtçay adlanan hissəsinin qazlaşdırılması işləri aparılır. Ümumilikdə 175 mənzilin olduğu ərazinin qazlaşdırılması üçün 6000 metrədək müxtəlif diametrli qaz kəmərlərinin çəkilməsi nəzərdə tutulub ki, artıq işlərin 85 faizi yerinə yetirilib. Bundan başqa, şəhərin Yeni Sumqayıt adlanan yaşayış massivinin də cari ildə qazla təmin olunması üçün layihələndirmə işləri aparılır.

Görülən işlərin nəticəsində istehlakçılar normativ təzyiqli, keyfiyyətli və fasiləsiz təbii qazla təmin olunacaqlar. Əhalinin təhlükəsiz və itkisiz mavi yanacaqla təchizatının yaxşılaşdırılması, şəbəkənin qaz nəqletmə imkanının artırılması məqsədilə görülən tədbirlər Sumqayıt sakinlərinin də ürəyincə olub.

Qeyd olunduğu kimi, qaz verilməyən yaşayış məntəqələrinin qazlaşdırılması işləri də davam etdirilir. Belə ki, Xaçmaz rayonunun Digahoba, Aşağı Ləgər və Seyidlər kəndlərinin qazlaşdırılmasına başlanılıb. Tikinti işləri yekunlaşdıqdan sonra üç kənddə ümumilikdə 300 abonent yüksəktəzyiqli təbii qazla təmin olunacaq. Kəndlərin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 28 min metrə yaxın olan müxtəlif diametrli polad və polietilen borularla daşıyıcı, məhəllədaxili qaz xətləri çəkiləcək. Bununla yanaşı, bütün abonentlər üçün qaz sayğacı və fərdi tənzimləyici quraşdırılacaq. Qazlaşdırma işlərinin ilin sonuna kimi başa çatdırılması nəzərdə tutulub.

Bununla yanaşı, Quba rayonunun Təngəaltı və Kunxırt kəndlərinin qazlaşdırılmasına başlanılıb. Tikinti işləri yekunlaşdıqdan sonra bu 2 kənddə ümumilikdə 308 abonent yüksəktəzyiqli təbii qazla təmin olunacaq. Kəndlərin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 14 min 700 metr olan müxtəlif diametrli polad və polietilen borularla daşıyıcı, məhəllədaxili qaz xətləri çəkiləcək. Bununla yanaşı, bütün abonentlər üçün qaz sayğacı və fərdi tənzimləyici quraşdırılacaq.

Rayonun Hacıhüseynli və Əliməmmədoba kəndlərinin qazlaşdırılması isə başa çatmaq üzrədir. Həmin kəndlərdə 727 abonent yüksəktəzyiqli təbii qazla təmin olunacaq. Bu il Qubanın 11 yaşayış məntəqəsinin təbii qazla təminatı planlaşdırılır. Rayonda il ərzində qazlaşdırılacaq yaşayış məntəqələrində ümumilikdə 1715 abonent qeydə alınıb.

Xatırladaq ki, bu il Xaçmazda 3, Qubada 11, Qusarda isə 1 yaşayış məntəqəsi qazlaşdırılacaq. Bununla da şimal regionunda daha 2 min 172 abonent "mavi yanacaq"la təmin ediləcək. Hazırda şimal regionunda qazlaşdırılan yaşayış məntəqələrinin sayı 288, təbii qazdan istifadə edən abonentlərin sayı isə 102 mindən çoxdur.

Qaz təchizatının yaxşılaşdırılması ilə əlaqədar aparılan əsaslı təmir-tikinti işləri çərçivəsində Abşeron rayonu Qobu qəsəbəsində əhali istehlakçılarının mənzillərində istismar müddəti başa çatmış məişət qaz sayğaclarının yenisi ilə əvəz olunması işləri və istismara yararsız vəziyyətdə olan qaz avadanlıqlarının və boru xətlərinin yeniləri ilə əvəz edilməsi işləri uğurla icra olunur.

Dövlət yoxlaması vaxtı bitmiş qaz sayğaclarının yeni nəsil "smart-kart" qaz sayğacları ilə əvəzlənməsi, quraşdırılan sayğacların kipliyə yoxlanıldıqdan sonra yivli birləşmələrinin plomblanması və dəyişdirilən qaz xətlərinin rənglənməsi işləri aparılır. Belə ki, tərtib edilmiş layihəyə uyğun olaraq qəsəbədə 2500 yeni qaz sayğacının əymə üsulu ilə yeni çəkilmiş xətlərin üzərinə quraşdırılması nəzərdə tutulur ki, artıq bu günə 500-dən artıq yeni sayğac quraşdırılıb. Qəsəbə ərazisində aparılan yenidənqurma işlərinin qısa zamanda başa çatdırılması üçün müvafiq tədbirlər görülür. İşlər başa çatdırıldıqdan sonra qeyd olunan ərazidə yaşayan istehlakçıların tələb olunan təzyiqdə, keyfiyyətli və dayanıqlı təbii qazla təminatı üçün əlavə imkan yaradılacaq.

Verilən məlumata görə, bu ilin yanvar-may aylarında "Azəriqaz" İstehsalat Birliyində əhali sektoru üzrə 43 min 153 yeni abonent qeydiyyata alınıb ki, bunun da 21 min 240-ı Bakı, Abşeron və Sumqayıt, 21 min 913-ü isə regionlar üzrədir. "Azəriqaz"dan bildirilib ki, yeni abonentlərin sayının artmasında abonent bazasının daha da genişləndirilməsi istiqamətində işlərin aparılması, yaşayış məntəqələrinin qazlaşdırılması və qaz təminatının bərpa edilməsi, həmçinin təbii qazla təmin olunmuş ərazilərin genişlənən hissələrindəki fərdi yaşayış evlərinin qazlaşdırılması əsas rol oynayıb.

Təsadüfi deyil ki, görülən məqsədyönlü işlər nəticəsində ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 2 milyon 226 min 675-ə çatıb.

**Qaşqay RAMAZANOV**

# Arpaçay Karate Klubunun ən böyük hədəfi beynəlxalq müstəvidə Azərbaycanı layiqincə təmsil etməkdir

## *Əməkdar məşqçi Yavər Hüseynov: Biz həvəslə işləyirik, zirvəyə çatmaq üçün də bu yoldan dönməyəcəyik*



***Son illərdə sürətli inkişaf göstəricilərinə görə dünyanın ən qabaqcıl ölkələri sırasına çıxan Azərbaycanda idman sahəsinə dövlət qayğısı daim hiss olunur. Gənc nəslin sağlam yetişməsi üçün hər il yeni-yeni idman sağlamlıq obyektləri və müəssisələri, olimpiya idman kompleksləri tikilib istifadəyə verilir. Azərbaycanın gələcəyi olan uşaq və gənclərə yaradılan şəraitə görə idmanın bütün növlərinə axın ildən-ilə artır. Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarına karate-donun rəsmi olaraq olimpiya növü kimi daxil edilməsi son illər Azərbaycanda karateyə marağı daha da artırıb. Uzun illər bu sahədə fəaliyyət göstərən, respublika və beynəlxalq səviyyəli yarışlarda yüksək nəticə göstərən, eyni zamanda, daim Azərbaycanın adını beynəlxalq müstəvidə tanıtmaq və bayrağını dalğalandırmaq əzmi ilə yaşayan karate məşqçiləri üçün bu hadisə ikiqat stimul rolunu oynayıb. Müsahibimiz Dünya Kombat-Şotokan Federasiyasının Azərbaycan üzrə nümayəndəsi, Azərbaycan Milli Karate-do Federasiyasının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin rəhbəri, Arpaçay Karate Klubunun prezidenti, IV dan qara kəmər sahibi, Əməkdar məşqçi Yavər Ənvər oğlu Hüseynov da onlardan biridir.***






**- Yavər müəllim, əvvəlcə idman sahəsinə gəlişiniz və sonrakı fəaliyyətiniz haqqında məlumat verməyinizi xahiş edirik.**

- 1973-cü ildə Şərur rayonunda anadan olmuşam. Karate ilə tanışlığım 13 yaşımda olub. 1986-cı ildə Şərur rayonunun Dizə kəndində məşqçi Nadir Həsənovun rəhbərliyi ilə karatenin sirlərini öyrənmişəm. Azərbaycanın karate üzrə milli komandasının üzvü kimi 1990-cı illərdə yarışlarda iştirak etmişəm. Həmin vaxt hərbi xidmətdə olsam da, iştirak etdiyim bir neçə beynəlxalq yarışın qalibi olmuşam. Ordudan tərxis olunduqdan sonra, 1994-cü ildən Şərur rayonunda karate-do məktəbi yaratmışam. Gənc məşqçi olsam da, o vaxt bizim məşqlərə kifayət qədər axın yarandı. Elə vaxt olub ki, 240-dan çox tələbəm olub.

Onu da qeyd edim ki, 1995-ci ildən Naxçıvan daxilində yarışlar təşkil etmişik. Naxçıvanla yanaşı, İran və Türkiyədə keçirilən yarışlarda idmançılarımızın iştirakını təmin etmişik. 1999-cu ildən sonra Bakıya gələrək, burada dövlət və özəl müəssisələrdə çalışmaqla yanaşı, fərdi şəkildə karateçilər hazırlamışam. Daha sonra Sərhədçi Olimpiya Mərkəzində 5 il müddətində məşqçi kimi fəaliyyət göstərmişəm.

**- İndi isə klubunuzun yaranma tarixi və nailiyyətlərinizdən bəhs edərdiniz.**

- Arpaçay Karate Klubu 2015-ci ildə təsis olunub. Klubun rəhbəri mən, klubumuzun baş məşqçisi beynəlxalq dərəcəli hakim, Əməkdar məşqçi Vüqar Kərimov, "Sumqayıt-Binəqədi" filialının məşqçisi peşəkar idmançı Mehman Əlirzayev, digər gənc məşqçimiz isə Toğrul Adillidir. Yeni qatılan üzvlərlə yanaşı, klubumuzun 150-yə yaxın idmançısı var, 30-a yaxın üzvü olan "yığma komanda"mız mövcuddur. Yaranmasının 4 ili tamam olan klubumuzun üzvləri bu müddət ərzində Azərbaycanın daxilində və beynəlxalq yarışlarda müntəzəm iştirak edərək kifayət qədər yüksək nəticələr əldə ediblər. Lakin bizim hədəfimiz təkcə klubumuzun Azərbaycan daxilində 1-ci olması deyil, dünya üzrə 1-ci yerə çıxmasıdır. Təbii ki, bu istək beynəlxalq idman arenalarında Azərbaycanın bayrağının daha tez-tez dalğalanması, himnimizin davamlı olaraq səslənməsini təmin etmək arzusundan qaynaqlanır.

Onu da xatırladım ki, son respublika çempionatında Arpaçay Karate Klubu sağlam rəqabət şəraitində 70-ə yaxın klub arasında ön sıralardan birini tutub. Bu, onu göstərir ki, sağlam rəqabət olan yerdə inkişaf da olur. Buna baxmayaraq, özümüzdən razı deyilik. Ona görə ki, klubumuzun belə bir şüarı var: "Biz demirik ki, bizdən yoxdur, biz deyirik ki, biz də varıq".

**- Azərbaycanın karate üzrə milli komandasında xeyli yetirməniz var, həmçinin beynəlxalq turnirlər təşkil edirsiniz. Klubunuzun uğurlarının sirri nədədir?**

- Təvazökarlıqdan uzaq olsa da, Arpaçay Karate Klubunun bu 4 il müddətində əldə etdiyi uğurları özümün karatenin şotokan növü üzrə 27 illik təcrübəm, klubumuzun baş məşqçisi Vüqar Kərimovun çoxillik təcrübə və bacarıqları, digər məşqçilərimizin peşəkarlığı və əzmi ilə əlaqələndirə bilərəm. Təbii ki, burada gənc idmançıların karate idman növünü sevərək, onun incəliklərini mənimsəyərək yerli və beynəlxalq turnirlərdə tətbiq etməsi də böyük rol oynayır. Belə ki, biz son 1 ildə klublararası yarışlarda 12-13 və 14-15 yaşlı idmançılar arasında dəfələrlə 1-ci yeri qazanmışıq. Klubumuzun üzvləri nəinki respublika üzrə turnirlərdə, dünya, Avropa çempionatlarında həmişə medal qazanıblar. Elə bu günlərdə Macarıstanda keçirilən məktəblilərin dünya çempionatında yeniyetmələrdən ibarət milli komandada təmsil olunan iki yetirməmiz - Ramil Baxşəliyev və Hüseyn Hüseynzadə çempion olublar. Həmin turnirdə Azərbaycan milli komandası medal sayına görə 1-ci yerə çıxıb.

Lakin biz bu nəticələrlə kifayətlənmirik, çünki hədəfimiz daha da yüksəkləri fəth etməkdir. Bunun üçün klubumuzda kifayət qədər hazırlıqlı idmançılar var. Təkcə bir faktı deyim: yığma komandamızın 3-8 il müddətində intensiv məşq keçən idmançıları arasından müxtəlif yaş qruplarında 13 nəfər yüksək nəticə göstərərək Milli Karate Federasiyasının Azərbaycan milli komandasının yeniyetmə və gənclər üzrə komandasının tərkibinə daxil ola biliblər.

**- Hər il keçirilən 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş "Arpachay Open" turniri ilə yanaşı, digər beynəlxalq və klublararası turnirlər də təşkil edirsiniz. Nəticələr sizi qane edirmi?**

- Mən xarici ölkələrdə keçirilən yarışlarda iştirak edəndə həmin turnirlərin bizdə təşkil edilməməsinə görə məyusluq hissi keçirirdim. Bu hisslər məni beynəlxalq yarış təşkil etməyə məcbur etdi. 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş ilk beynəlxalq yarış da bu hədəfdən qaynaqlandı. Bəzi müəllim və hakimlər böyük riskə getdiyimizi desələr də, biz 2016-cı ilin yanvarında bu yarışı keçirə bildik. Bundan sonra ənənəvi olaraq 20 Yanvar faciəsinin ildönümü ərəfəsində təşkil etdiyimiz beynəlxalq yarışlar yüksək səviyyədə baş tutdu. 2016-cı ildəki ilk açıq çempionatda 400, 2017-ci ildə 600, 2018-ci ildəki üçüncü turnirdə 810, ən nəhayət, 2019-cu ildə keçirilən, sonuncu "Arpachay Open" adlanan beynəlxalq turnirimizdə 10 ölkədən 1150 nəfər idmançı iştirak edib. 2020-ci ilin yanvarında keçiriləcək növbəti beynəlxalq turnirimizdə 17 ölkədən idmançıların iştirakı gözlənilir.

Yeri gəlmişkən, ötən ay Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "Naxçıvan Open" beynəlxalq turniri keçirdik. Yarışda Azərbaycan idmançıları ilə yanaşı, Türkiyə, Rusiya, İran, Ukrayna, Qazaxıstan, Gürcüstan və digər ölkələrdən (10 ölkə) 400-ə yaxın idmançı iştirak etdi. Bu günlərdə isə FHN-in Hövsan qəsəbəsində yerləşən İdman-Sağlamlıq Mərkəzində 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş karate üzrə seminar və Xətai rayon birinciliyi keçirdik. İkiqat dünya çempionu, VII dan qara kəmər sahibi Füzuli Musayevin rəhbərliyi ilə seminar böyük maraqla qarşılandı.

Onu da deyim ki, bizim yerli, klublararası, respublika və beynəlxalq turnirlərimizin hamısı tarixi hadisələrə və vətənpərvərliyə həsr olunub. Bizim bu yöndə fəaliyyətimiz davamlı olacaq. Məsələn, bu ilin sentyabrında Azərbaycanın yəhudi əsilli Milli Qəhrəmanı Albert Aqarunovun xatirəsinə həsr olunmuş beynəlxalq turnir keçirməyi planlaşdırırıq.

**- Yeri gəlmişkən, gələcək planlarınız və qarşılaşdığınız çətinliklər barədə nə deyə bilərsiniz?**

- Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin idmana qayğısı və diqqəti bütün idmançılar kimi, bizim üzərimizdə də hər zaman hiss edilməkdədir. Biz də bu qayğıdan ruhlanaraq, fəaliyyətimizi genişləndirir, karateçilərin hazırlığı və yarışların keçirilməsi üçün əzmlə çalışırıq.

Çətinliklərə gəlincə, bütün müstəqil klublar kimi, təbii ki, nisbətən aşağı yaşda olan idmançıların respublikadaxili yarışlar və beynəlxalq turnirlərə hazırlığı və iştirakının təmin olunmasında müəyyən çətinliklərimiz olur. Buna görə də həm dövlət orqanları, həm də özəl sektorlarda olan dostlarımıza vaxtaşırı sponsorluq üçün müraciət edirik. Ümid edirəm ki, dostlarımız və digər karatesevər şəxslər bu çağırışlara biganə qalmayacaqlar.

Bütün çətinliklərə baxmayaraq, gələcəyə nikbin baxırıq və əzmlə çalışırıq. Ona görə ki, qarşımıza qoyduğumuz hədəfə həmişə çatmışıq. Belə ki, Arpaçay Karate Klubunu yaradanda ilk hədəfimiz o olmuşdu ki, qısa müddətdə ölkə daxilində klubumuzu tanıdaq. Biz buna, doğrudan da, nail olduq.

Sonrakı hədəfimiz klubumuzun üzvlərindən perspektivli gəncləri seçərək və hazırlayaraq "yığma komanda" yaratmaq və bu yığmadan Azərbaycanın karateçilərindən ibarət milli komandaya idmançı yetişdirmək olub. Bu hədəfə də biz artıq nail olmuşuq.

2020-ci ildən sonra növbəti hədəfimiz mənim və Vüqar müəllimin yetişdirdiyi artıq yeniyetmə dövrünü adlayan idmançıların dünya və Avropa çempionatlarına, olimpiya oyunlarına hazırlanmasıdır. Həmin idmançıların dünya arenasına çıxması və medal qazanması, birincisi, Azərbaycanın uğurudur, ikincisi də, gələcək planlarımızın həyata keçirilməsidir. Biz həvəslə işləyirik, zirvəyə çatmaq üçün də bu yoldan dönməyəcəyik.

Digər ən mühüm hədəfimiz gələcəyimiz olan uşaqların sağlam böyüməsinə töhfə verməkdir. Bu prosesdə karate-do idman növünə marağı təşviq etməklə uşaq və gənclərin sağlam həyat tərzi sürməsi yönündə dövlətimizin yürütdüyü siyasətə xidmət edirik. Bunların hamısı isə Vətənə sevgidən, ümumAzərbaycan marağından qaynaqlanır. Arpaçay Karate Klubunun ən böyük hədəfi isə beynəlxalq müstəvidə Azərbaycanı layiqincə təmsil etməkdir.

**Qaşqay ZİYƏDDİNOĞLU**

## İTMİŞDİR

Azərbaycan Alpinizm Federasiyasının nizamnaməsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU